

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Hər daşında bir tarix yaşadan Şuşamız



5

SƏS

№ 112 (6795)

25 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan-Qazaxıstan münasibətləri: yeni hədəflərə doğru



2

PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanla Qazaxıstan arasında münasibətlər strateji xarakter daşıyır, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf edir"

# Ermənistanın sülh ritorikası ilə mövqeyi arasında ZİDDİYYƏTLƏR




6

## Foreign Affairs: "İran Zəngəzur dəhlizinin açılmasına qarşıdır"




10

## ABŞ mətbuatı: Ermənistan ictimai rəyi sülhə problemlər yaradır




4

## Mədəniyyət xəzinəmiz




11



12

## Moskva mühasirəyə alınır

## Birotaqlı mənzillərin sayı niyə azalıb?



16

# Azərbaycan-Qazaxıstan münasibətləri: yeni hədəflərə doğru

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanla Qazaxıstan arasında münasibətlər strateji xarakter daşıyır, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf edir"

**Bu gün Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən regionun türk dövlətləri ilə münasibətlərə mühüm əhəmiyyət verir. Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə təbii olaraq ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. Azərbaycanın sıx, tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri də Qazaxıstandır.**

İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbulu zamanı azərbaycan və qazax xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqların ənənəvi dostluq və qardaşlıq əlaqələrinə əsrlərə söykəndiyini bildirib: "Azərbaycanla Qazaxıstan arasında münasibətlər strateji xarakter daşıyır, əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf edir".



### "ÖLKƏLƏRİMİZ ARASINDA ƏLAQƏLƏR REGİONAL ƏMƏKDAŞLIQ, O CÜMLƏDƏN XƏZƏR HÖVZƏSİNDƏ VƏ DAHA GENİŞ MƏKANDA ƏMƏKDAŞLIQ ÜÇÜN BÖYÜK ÖNƏM DAŞIYIR"

Prezident İlham Əliyev Qazaxıstanın Baş naziri Alixan Smailovu qəbul edərkən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin ötən il Azərbaycana, özünün isə bu il Qazaxıstana səfəri zamanı əldə edilmiş razılıqların uğurla həyata keçirildiyini və onların icrasının daim diqqətdə saxlanıldığını deyərək bunu əməkdaşlığımızın yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirib.

Azərbaycan Prezidenti qeyd edib ki, ölkələrimiz arasında əlaqələr regional əməkdaşlıq, o cümlədən Xəzər hövzəsində və daha geniş məkanda əməkdaşlıq üçün böyük önəm daşıyır. Bu əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bütün bunların ticarət dövriyyəsinin həcminin artırılması, əlavə biznes imkanlarının yaradılması, energetika, nəqliyyat və digər sahələrdə böyükmiqyaslı layihələrin həyata keçirilməsi işinə xidmət etdiyini vurğulayıb. Prezident İlham Əliyev Alixan Smailovun səfərinin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Bəli

### HƏR İKİ DÖVLƏTLƏRİN BAŞÇILARININ MÜNTƏZƏM XARAKTERLİ SƏFƏRLƏRİ ÖLKƏLƏRARASI ƏLAQƏLƏRİN İNKİŞAFINA, YENİ ƏMƏKDAŞLIQ İMKANLARININ YARANMASINA GƏTİRİB ÇIXARIB

Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə, region dövlətlərinin başçılarının isə Azərbaycana səfərləri müntəzəm xarakter alıb. Bu isə təbii olaraq ölkələrarası əlaqələrin inkişafına, yeni əməkdaşlıq imkanlarının yaranmasına gətirib çıxarıb. O cümlədən azərbaycan və qazax xalqları arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqlar iki ölkə arasında əlaqələrin əsasını təşkil edir. Ölkələrimizin ənənəvi dostluq və qardaşlıq əlaqələri əsrlərə söykənir.

Təsadüfi deyil ki, hazırda Qazaxıstanda iki yüz minə qədər azərbaycanlı yaşayır (onların üçdəbir hissəsi Türküstan vilayətində). Onlar bu ölkənin elm, incəsənət, kənd təsərrüfatı, biznes və digər sahələrində çalışır, ictimai-siyasi həyatda yaxından iştirak edirlər. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılıb. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrında Azərbaycanın Qazaxıstanın Aktau şəhərində baş konsulluğu açılıb.



Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana son səfəri 2022-ci il oktyabrın 13-14-də olub və dövlətimizin başçısı Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə Toplantısında, həmçinin Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında iştirak edib. Ötən il avqustun 24-də isə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ölkəmizə rəsmi səfər edib.

Dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir. Ümumiyyətlə, Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı yüksək səviyyəli səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib.

İkitərəfli əlaqələrə gəldikdə qeyd etmək yerinə düşər ki, Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzi tikilməkdədir. Bu addım Azərbaycan Prezidenti və xalqı tərəfindən yüksək qiymətləndirilir. Qeyd edək ki, ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sənədli film çəkilib ki, bu filimdə Qazaxıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafında ümummilli liderin xidmətlərindən bəhs edilir.

Eyni zamanda, Qazaxıstanın regionda sülhün, təhlükəsizliyin və iqtisadi əməkdaşlığın təşviq edilməsinə yönəlmiş fəaliyyəti, habelə Asiyada təhlükəsizliyin möhkəmlənməsi sahəsində "Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə"nin yaradılması ilə bağlı təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub.

### BAŞ NAZİR ALİXAN SMAİLOV: "Azərbaycanla Qazaxıstan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır"

"Azərbaycanla Qazaxıstan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır". Bunu Qazaxıstanın Baş naziri Alixan Smailov iyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olan zaman deyib.

Bütün sahələrdə əməkdaşlığımızın uğurla inkişafından məmnunluğunu ifadə edən Alixan Smailov qarşılıqlı fəaliyyətimizin strateji tərəfdaşlığa əsaslanan münasibətlərimizin göstəricisi olduğunu vurğulayıb. Qazaxıstanın Baş naziri əməkdaşlığın müxtəlif sahələrdə möhkəmlənməsi işinə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Alixan Smailov qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və dost Azərbaycan xalqına təbriklərini çatdırdı. Və bu il Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayan qonaq Ulu Öndərin Qazaxıstana həmişə səmimi dostluq münasibətləri bəslədiyini dedi, bu il Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə Heydər Əliyev küçəsinin açılışını ölkələrimizin və xalqlarımızın birliyinin təcəssümünü bir daha nümayiş etdirdiyini söylədi.

Qazaxıstanın Baş naziri əməkdaşlığın müxtəlif sahələrdə möhkəmlənməsi işinə Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə minnətdarlığını bildirib. Ölkəmizin Qazaxıstan üçün Cənubi Qafqazda ən mühüm iqtisadi-ticarət tərəfdaşı olduğunu söyləyən qonaq ötən ilin nəticələrinə görə qarşılıqlı ticarətin həcminin 460 milyon dolları keçərək 40 faiz artdığını, bu il də bu dinamikanın davam etdirildiyini məmnunluqla bildirdi və potensialın daha da artırılması üçün imkanların olduğunu söylədi.

Görüşdə Qazaxıstan tərəfindən Füzuli şəhərində uşaqlar üçün Yaradıcılığın İnkişafı Mərkəzinin inşası yüksək qiymətləndirildi, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, ölkələrimiz arasında neft, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, gəmiqayırma, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Son dövrlərdə Xəzər dənizindən Orta Dəhliz vasitəsilə Azərbaycan və Qazaxıstan, həmçinin üçüncü tərəflərin bu marşrut istiqamətində yüklərinin həcminin çoxalması məmnunluqla qeyd edildi, bu istiqamətdə ölkələrimizin birgə səylərinin artırılmasının vacibliyi vurğulanıb.

Söhbət zamanı dost ölkə Qazaxıstan şirkətlərinin də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müxtəlif layihələrdə iştirakı perspektivləri müzakirə olunub.

Bir sözlə,

### AZƏRBAYCAN VƏ QAZAXISTAN REGİONAL İNKİŞAFA TÖHFƏ VERƏN NƏHƏNG GÜCLƏRDİR

Bəli, Azərbaycan və Qazaxıstan regional inkişafa töhfə verən nəhəng güclərdir. Azərbaycan və Qazaxıstan müstəqilliklərini qazandıqları gündən regionda və beynəlxalq aləmdə bir-birinə dəstək verən iki strateji tərəfdaşdır. Qazaxıstan həmişə ölkəmizin ərazi bütövlüyünü dəstəkləmişdir. Yalnız dövlətlərarası sənədlərdə deyil, real həyatda da Azərbaycan Qazaxıstanın dəstəyini hər zaman hiss edib.

Azərbaycanla Qazaxstan arasındakı dostluq və əməkdaşlıq əlaqələri bu gün də yüksək səviyyədədir. Belə ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin də ölkəmizlə çoxşaxəli əməkdaşlıq etməkdə maraqlıdır və bu istiqamətdə real addımlar atır. Və bu gün prezidentlər İlham Əliyevin və Qasım-Jomart Tokayevin səyləri nəticəsində iki ölkə arasındakı mövcud əlaqələr daha da dərinləşərək strateji tərəfdaşlıq və qardaşlıq səviyyəsinə yüksəlib. 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi işğalçılardan azad etmək üçün apardığımız mübarizədə Qazaxıstanın mövqeyini xüsusilə vurğulamaq lazımdır. Qazaxıstanın, eləcə də ölkəmizin çoxsaylı həqiqi dostlarının obyektiv və balanslı mövqeyi İkinci Qarabağ savaşında ədalətin qalib gəlməsinə kömək etdi. Bu münasibətlərin bütün sahələrdə daha da inkişaf etməsi üçün bu gün də tərəflər siyasi iradəsi numaiyiş etdirirlər.. Din, dil və ortaq tariximiz də bunu tələb edir. İki ölkə arasında sıx siyasi və iqtisadi dialoqla yanaşı, mədəni-humanitar, elm və təhsil sahələrində əməkdaşlıq dinamik şəkildə inkişaf edir.

Bu, şübhəsiz ki, Qazaxıstan-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafına öz töhfəsini verir. Azərbaycanın Qazaxıstanda və Qazaxıstanın Azərbaycanda vaxtaşırı mədəniyyət günləri keçirilməklə ölkələrin mədəniyyət sahəsindəki nailiyyətləri nümayiş etdirilir. Bütün bu amillər son 30 ildə bizi daha da yaxınlaşdırıb. Eyni soy köklərimiz, adət-ənənələrimiz- bütün bunlar xalqlarımızın daha da yaxınlaşmasına yaxşı zəmin yaradıb. Bir sözlə, bütün bu uğurlar bir daha onu təsdiqləyir ki, Qazaxıstan ilə münasibətlər bundan sonra da Azərbaycanın xarici siyasətində prioritet olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Milli sərvətimiz olan zəngin irs

*Dövlət başçısının Sərəncamı ilə "Heydər Əliyev adına təqaüd" təsis edilib*



Ölkə həyatının bütün sahələrini əhatə edən misilsiz xidmətləri ilə adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk edən Ulu Öndər Heydər Əliyev zəngin siyasi təcrübəsi, Vətənə olan tükənməz sevgisi ilə dövlət müstəqilliyimizi təhlükədən qurtardı. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran Ulu Öndər Heydər Əliyev xalqın xilaskarı və Azərbaycanın Memarı və Qurucusu olaraq adını tariximizə əbədi olaraq yazdı. Qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə ölkəmizdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olan Ulu Öndər Heydər Əliyevin - tarixi Şəxsiyyətin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmaqdadır. Ölkəmizdə bu il - 2023-cü il "Heydər Əliyev İli" elan edilib.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev adına təqaüd"ün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 (yüz) nəfər tələbə üçün "Heydər Əliyev adına təqaüd" təsis edilməsi qərara alınıb. Sərəncama əsasən, bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına 3000 (üç min) manat məbləğində birdəfəlik veriləcək. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Yaşadığımız tarixi gerçəkliklərin müqayisəsi Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi, fonemen bir siyasətçi olduğunu bir daha təsdiqləyir. Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Ulu Öndər Heydər Əliyevin idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri Azərbaycan tarixinin möhtəşəm səhifələrini yazıb. Ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində böyük xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasətin məntiqi olaraq Azərbaycan sözün əsl mənasında yeni yüksəliş dövrünü yaşayıb. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər ölkənin istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, sənaye potensialının gücləndirilməsi, xalqın gələcəyini nəzərdə tutan milli kadr potensialının yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atıb.

Hələ Ulu Öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı ilk gündən o zaman ən geridə qalmış respublikalardan biri sayılan Azərbaycanı qısa vaxt ərzində keçmiş İttifaqın ən qabaqcıl respublikaları səviyyəsinə yüksətdi. Ulu Öndər yazırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi". Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı. Həmin illər sovet Azərbaycanının tarixinə, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Ulu Öndər Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi, istedadı Onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində müstəsna rol oynadı və Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Mürəkkəb siyasi şəraitdə Ümummilli Lider Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi.

Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb. Əlbəttə ki, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun üzvləri Laçına səfər ediblər

Yenidən qurulan, abadlaşan Laçın bu dəfə əcnəbi diplomatları qonaq edib. Belə ki, Azərbaycanda akkreditə olunmuş 33 ölkədən, 10 təşkilatdan ümumilikdə 60-a yaxın diplomat və hərbi attaşe, eləcə də onların ailə üzvləri iyunun 24-də Laçına səfər ediblər. Əvvəlcə xarici diplomatlar Ermənistanla Azərbaycan arasında Laçın sərhəd-gömrük buraxılış məntəqəsinin yerləşdiyi körpüyə gəliblər. Onlara Ermənistanın bir sərhədçimizin yaralanması ilə nəticələnən son təxribatları haqqında məlumat verilib.





Bildirilib ki, silahlı təxribata qədər Xankəndidə yaşayan erməni əsilli sakinlər sərhəd-keçid məntəqəsindən heç bir maneə olmadan istifadə ediblər. Hazırda da Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə tibbi evakuasiya təyinatlı keçidə şərait yaradılır. Başqa sözlə, bəzi dairələrin iddia etdiyi kimi, yol bağlı deyil. Sadəcə, Ermənistanın son təxribatı ilə bağlı müvəqqəti istintaq tədbirləri həyata keçirilir.

Xarici diplomatların diqqətinə çatdırılıb ki, Ermənistan tərəfi sərhəd-gömrük buraxılış məntəqəsindəki hazırkı vəziyyətdən propaqanda vasitəsi kimi istifadə edir. Bəzi Avropa siyasətçiləri də gəlib körpünün digər hissəsində dayanaraq, həqiqəti əks etdirməyən birtərəfli məlumatlar paylaşırlar. Onlar bu vəziyyətdən özlərinin piar kampaniyaları üçün yararlanmağa çalışırlar.

Qonaqlar səfər çərçivəsində Laçında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olublar. Laçın şəhəri 1 Dekabr küçəsində salınmış ilk yaşayış məhəlləsinə baxış keçirən qonaqlar artıq yurd-yuvalarına geri dönmüş sakinlərlə söhbət ediblər.

Daha sonra diplomatik korpusun nümayəndələri Laçında qurulmaqda olan Aqro və Sənaye Parkına ziyarət ediblər. Onlara sənaye parkının imkanları, perspektivləri haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Aqro və Sənaye Parkı Laçının iqtisadi dirçəlişi və əhalinin məşğulluğu baxımından xüsusi əhəmiyyətə malikdir. Burada 46 şirkət fəaliyyət göstərəcək və ümumilikdə 1200-ə yaxın laçınlı işlə təmin ediləcək.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, Laçın şəhərində ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur. Xarici diplomatlar daha sonra Həkəri çayının sahilində salınan "Laçın bulvarı"na gəlib, bulvardakı quruculuq işləri ilə tanış olublar. Laçına səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Zabux kəndində də olublar. Onlara məlumat verilib ki, 30 ilə yaxın davam etmiş işğal dövründə kənd tamamilə dağıdılıb, məhv edilib. Hazırda isə Zabuxda genişmiqyaslı tikinti-bərpa işləri həyata keçirilir. Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar daha sonra Zəngilanın Ağalı kəndinə gəliblər. Burada qonaqlara Ağalıda tətbiq olunan "ağıllı kənd" konsepsiyası haqqında ətraflı məlumat verilib. Diplomatlar Ağalı sakinləri ilə söhbət ediblər.

# Ədalətin və milli iradənin təntənəsi - 24 iyun 1993-cü il

**Tarixin daha bir əlamətdar günü - 1993-cü il 24 iyun. Bu tarix Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Prezident səlahiyyətlərini icra etməyə başlaması ilə əlamətdardır. Bu, vətəndaş arzusunun, xalq inamının, müstəqil dövlətçiliyin qorunması üçün siyasi iradənin təntənəsi idi. Bəlli olduğu kimi, 1993-cü ilin may-iyun aylarında ölkəmizdə müstəqilliyin ciddi zərbə altına düşməsi, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Buna görə müdrik xalqımız Heydər Əliyevin ali hakimiyyətə gətirilməsi tələbini irəli sürdü və o vaxtkı ölkə rəhbərliyi onu paytaxt Bakıya dəvət etməyə məcbur qaldı. O məsuliyyətli günlərdə - 1993-cü ilin 15 iyun tarixində Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.**

> Bu tarixdən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Prezident səlahiyyətlərini icra etməyə başlaması vətəndaş arzusunun, xalq inamının, müstəqil dövlətçiliyin qorunması üçün siyasi iradənin təntənəsi idi



"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək" - Bu sözlər Heydər Əliyevin 15 iyun 1993-cü il tarixində parlamentdəki tarixi nitqindəndir.

### 15 İYUN 1993-CÜ İL - SİYASİ QAYIDIŞ, SÖZÜN HƏQİQİ MƏNASINDA AZƏRBAYCANI AZƏRBAYCANLILARA, MİLLƏTİN ÖZÜNƏ QAYIDIŞI

Ulu öndər Heydər Əliyevin ölkənin Ali Qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında çox mühüm bir hadisə oldu. Bu siyasi qayıdış, sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. Hadisələrin sonrakı gedişi göstərdi ki, 15 iyun Azərbaycanın müstəqillik tarixində yeni siyasi eranın başlanğıcı oldu. Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi.

Heydər Əliyev bu dövrdə əhalini döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü. 1993-cü il avqustun 29-da Milli Məclisin qərarı ilə Əbülfəz Elçibəyə etimadsızlıqla bağlı referendum keçirildi. Referendumun nəticələri AXC-Müsavat cütlüyünün xalq arasında heç bir dəstəyə malik olmadığını bir daha sübut etdi.

Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. İlk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvlər tezliklə aradan qaldırıldı.

Parlamentin sədri vəzifəsində fəaliyyət göstərən ulu öndər Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dəfələrlə vurğulayırdı: "Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır".

### 24 İYUN TARİXİ DÖVLƏTÇİLİYİN, MÜSTƏQİL SİYASƏT YÜRÜDƏN DÖVLƏTİN 15 İYUNDAN BAŞLAYAN NİCAT DÖNƏMİNİN MÜHÜM HƏLQƏSİ OLDU

Milli Məclisin iyulun 3-də keçirilən iclasında Heydər Əliyev bildirdi ki, o, AXC hökuməti zamanı neft sahəsindəki bütün danışıqları müvəqqəti olaraq dayandırır və hesab edir ki, bu məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənilməli və yalnız onların rəyindən sonra hər hansı bir qərar qəbul edilməlidir və bu zaman Azərbaycan xalqının mənafeyi əsas götürülməlidir. Zaman bu görkəmli dövlət xadiminin haqlı olduğunu bir daha sübut etdi. Cəmi 4 ay Ali Sovetin sədri vəzifəsində çalışsa da, Heydər Əliyev bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Heç də təsadüfi deyildir ki, 1993-cü il 3 oktyabr prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etmək niyyətində olduqlarını bütün dünyaya nümayiş etdirdilər. Ulu öndər Heydər Əliyev iqtisadi, siyasi, sosial, hüquqi islahatların həyata keçirilməsini, demokratik dəyərlərin cəmiyyətdə bərqərar olunmasını çox önəmli hesab edirdi. Bu məqsədlə o ölkənin yeni Konstitusiya layihəsinin hazırlanmasına böyük əhəmiyyət verir, bu işə şəxsən özü rəhbərlik edirdi. Uzun müzakirələrdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olundu. Həmin gün müstəqillik dövründə ilk dəfə parlamentə seçkilər keçirildi və I çağırış Milli Məclis tezliklə işə başladı. Ölkənin Əsas sənədinin qəbulu dövlət quruculuğu, cəmiyyətin gələcək inkişaf modeli üçün hüquqi əsas yaratdı. Bununla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu. Tezliklə ölkə başçısının 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquq islahatları Komissiyası yaradıldı. Komissiyada qısa müddətdə ölkə həyatının müxtəlif sahələri üzrə yeni qanun layihələri işlənib hazırlandı. Ümummilli lider Heydər Əliyev o məsuliyyətli, mürəkkəb günlərdə Ali Sovetin sədri olaraq, məhz parlamentarizm ənənələrinə sadiq qaldı, aşkarlıq prinsipinə üstünlük verdi.

### ÜMUMMİLLİ LİDERİMİZİN SİYASİ XƏTTİNƏ SADİQ QALAN AZƏRBAYCAN PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV MÜSTƏQİL ÖLKƏMİZİ GƏLƏCƏYƏ DOĞRU İNAMLA APARIR

Bəli, bu ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir. Ümummilli Liderimizin siyasi xəttinə sadiq qalan Azərbaycan Prezidenti cənab İlham Əliyev müstəqil ölkəmizi gələcəyə doğru inamla aparır. Sürətlə inkişaf edən və müasirləşən respublikamız qısa müddətdə regionun lider dövlətinə, xüsusilə dünyanın enerji təhlükəsizliyinin etibarlı təminatçılarından biri kimi özünün iqtisadi, siyasi və hərbi qüdrəti ilə qarşıya çıxan istənilən problemi həll etməyə qadir olan bir dövlətə çevrilib. Milli maraqlara əsaslanan siyasət, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, uğurlu diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində respublikamız dünya dövlətləri arasında söz sahibi olub. Möhtərəm Prezidentimiz İlham Əliyevin sadiq və nümunəvi silahdaşı kimi Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyatımızın bütün sahələrini əhatə edən, ən ali prinsipləri və normaları özündə əks etirən əməli fəaliyyəti ölkəmizin dünya birliyində öz layiqli yerini tutmasında mühüm rol oynayır.

Ən mühüm məqam isə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımızın 44 günlük Vətən müharibəsində azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Bir sözlə, 24 iyun 1993-cü ildən başlanan müasir dövlətçilik yolumuz bu gün də Ulu öndər ideyaları ilə davam etdirilir. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə məhz Ulu öndər tərəfindən əsası qoyulan zəfər yolunun uğurla davam etdirilməsi nəticəsində reallaşdı. Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, yaşadığımız indiki dövr Azərbaycan üçün uğurludur və bunun da tək səbəbi var. Çünki bu gün Heydər Əliyev siyasəti yaşayır, onun ideyaları yaşayır, onun qurduğu müstəqil dövlət yaşayır və güclənir.

***RƏFİQƏ KAMALQIZI***

## ABŞ mətbuatı: Ermənistan ictimai rəyi sülhə problemlər yaradır




Baş qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında "Erməni ictimai rəyi sülhə maneədirmi?" sərlövhəli məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatında deyilir ki, tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın müəllifi olduğu məqalədə qeyd olunub ki, nüfuzlu "Gallup" təşkilatının bu yaxınlarda keçirdiyi sorğunun nəticələrinə əsasən, Ermənistan əhalisinin təxminən 82 faizi baş nazir Nikol Paşinyanın Qarabağın dağlıq hissəsini Azərbaycan ərazisi kimi tanımaq bəyanatını rədd edir. Ermənilərin təxminən 86 faizi Qarabağ ermənilərinin gələcəyini Azərbaycan dövlətinin tərkibində təsəvvür etmir. Sözügedən sorğu Beynəlxalq Respublika İnstitutunun 2021-ci ildə analoji sorğu keçirməsindən sonraya təsadüf edir və sonuncuya görə, ermənilərin 35 faizi Qarabağın dağlıq hissəsinin müstəqil dövlət kimi tanınmasını, 34 faizi Ermənistanın tərkibinə inzibati vahid kimi daxil edilməsini, 16 faizi Ermənistanın tərkibində xüsusi statuslu bölgə olmasını, 11 faizi isə Rusiyaya birləşdirilməsini münaqişənin məqbul həlli hesab edir. Ermənilərin yalnız 1 faizi Azərbaycanla kompromisdən ibarət başqa variantları nəzərdən keçirməyə hazır olduğunu bildirib. Eyni sorğuya əsasən, ermənilərin 90 faizi Azərbaycanla Ermənistan arasında münasibətləri çox pis hesab edir, 77 faizi Azərbaycanın onların ölkələri üçün ən böyük siyasi təhlükə olduğu qənaətindədir, yalnız 4 faizi hesab edir ki, Azərbaycanla münasibətləri yaxşılaşdırmaq üçün səylər göstərilməlidir.

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan 2022-ci ildə Ermənistanla sülhün bərqərar olması üçün beş prinsipi müəyyən edərkən İrəvanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasını təməl şərt kimi irəli sürdüyü halda, əksinə, ermənilərin ölkəmizlə sülh məsələsinə vahid baxışı yoxdur. Əslində, baş nazir Nikol Paşinyan güzəştə getməyə hazır olduğunu nümayiş etdirsə də, Ermənistanla Azərbaycan arasında imzalanan istənilən sülh müqaviləsinə erməni diasporunda, bu ölkənin parlamentində və Qarabağ separatçılarının liderləri arasında güclü müqavimət var.

İsrailli politoloq bu mənada Ermənistan ictimai rəyini iki ölkə arasında sülh müqaviləsinin uğurla bağlanması yolunda əsas maneələrdən biri kimi dəyərləndirir. Onun fikrincə, Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsinə nail olunması prosesini uğurla başa çatdırmaq üçün Azərbaycanın Qarabağ üzərində ərazi bütövlüyünü tanımaqla kifayətlənməməli, erməni xalqını sülh müqaviləsini dəstəkləməyə təşviq etməlidir, əks təqdirdə, əldə olunacaq sülh uzun sürməyəcək. Məqaləni ətraflı şəkildə bu linkə keçid edərək oxumaq olar.

# Hər daşında bir tarix yaşadan Şuşamız



**Qısa bir zaman məsafəsində ideoloji, ictimai-siyasi tədbirlərin keçirildiyi məkana çevrilən, Türk dünyasının mədəniyyət paytaxtı Şuşamıza gələn qonaqların, əzəli sakinlərinin hər birinə aydın olur ki, Şuşa bu gün yeni bir dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib.**

28 ilə yaxın bir tarixdə erməni işğalında qalan Şuşamız azad olundu. Əsrlərdən səsi eşidilən, hər zaman toy-büsatlı olan Şuşamız tarixin dönəmlərində çox hücumlara məruz qalsa da, başını dik tutub, əyilməz, məğlubedilməz olub. Çox gözlər dikilib bu diyara. Hər daşında bir tarix yaşar, bir tarix danışılar. 28 il erməni işğalı altında qalan Şuşamız bu gün azad nəfəs alır. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi haqqında Sərəncamı bu şəhərin böyük mədəniyyət beşiyi olduğunu bir daha təsdiqlədi.

"Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan gələn səslərdə böyük bir dünyadan söz açılır.

Kimlərin səsi, ünü gəlmir bu diyardan? Mir Möhsün Nəvvab, Baba bəy Şakir, İsgəndər bəy Rüstəmbəyov daha kimilər Şuşa bulağından su içib. Xüsusi olaraq qeyd edək ki. Şuşada təkcə XIX əsrdə 95 şair, 22 musiqişünas, 58 xanəndə, 12 nüsxabənd, 19 xəttat, 16 nəqqaş, 8 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qafqazda yeganə olan Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Belə bir əməl sahibi olmaq əlbəttə ki, onların iç dünyasından yağan bir ideologiyanı göstərir - faşist ideologiyasını. Belə vandallıq əməllərinin müəllifi olanlara nə ad vermək olar? Hərdən susursan da, söz tapa bilməyəndə. Üzeyirlər, Bülbüllər yetirən torpağın səsini-sədasını kömürmək qeyri-mükündür. Çünki hər daşının yaddaşı bizi qeybdən gələn səslərə yaxınlaşdırır. Tarixin dönəmlərində Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidilib. Şuşada, Cıdır düzündə festivallar, tədbirlər keçirilib, xalqın ruhu, istəyi öz ifadəsini tapıb. Bu şəhərin Azərbaycan mədəniyyət tarixində özünəməxsus yeri və rolu var. Şuşanın yetirdiyi sənətkarların hər biri mədəniyyət tariximizdə dəsti-xətti ilə seçilib. Azərbaycan muğam sənətinin böyük ustadı, musiqimizin xanı, Xan Şuşinski kimi. Bu ecazkar səslər sırasında adını çəkə biləcəyimiz kifayət qədər tanımış sima var.

## "XARIBÜLBÜL"ÜN SƏDASI DAĞLARI, DAŞLARI AŞARAQ, YENİDƏN XOŞ OVQATINI DÜNYAYA YAYDI

Fəsillərin hər birində özünəməxsus gözəlliyə qərq olan Şuşamız baharın göz oxşayan ətirli çiçəklərinin ahəngində musiqili dünyası ilə yenidən dünyanın müxtəlif yerlərindən qonağı olan insanlara isti nəfəsli qucağını açdı. Toy-büsatlı Qarabağımızın incisi "Xarıbülbül"ün sədası ilə dağları, daşları aşaraq, yenidən xoş ovqatını dünyaya yaydı. Xalqın milli və klassik musiqisi dağları-dərələri aşdı. Bundan qürurverici nə ola bilərdi? Vaqif Poeziya Günləri sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramına çevrildi. Bildiyimiz kimi, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Budəfəki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak etdilər. Cari ilin may ayında keçirilən növbəti festivalda Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumu (Qaqauz Yeri), Özbəkistan, eləcə də Özbəkistanın Qaraqalpaqıstan Muxtar Respublikası, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti, Türkiyə, Türkmənistan təmsil olundular. Xoş əhvali-ruhiyyəli bu musiqi bayramı bir daha dünyanın nəzər nöqtəsində oldu. Bir daha sərgilədi ki, müharibəni qalibiyyətlə başa vuran bir xalqın beynəlxalq festivalları da möhtəşəm olur. Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərdi ki, işğaldan azad olunan torpaqlarımız əzəli sakinlərini qoynuna alanda belə əzəmətli, möhtəşəm olur. Bu xalqın övladları kimi, onun gülü-çiçəyi də, atları da vəfalıdır. Artıq neçə ildir ki, Xarıbülbülümüzün ətri dünyaya öz ətrində yayılır. Bu qoxu ondan duyulan VƏTƏN qoxusudur. Şuşamızın qoxusudur. Bu ətri duya biləcək insanlar Vətən anlayışının nə demək olduğunu anlayanlardır. Hər bir azərbaycanlının qüruruna çevrilən "Xarıbülbül" Beynəlxalq musiqi festivalı! Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq".





"Xarıbülbül" Beynəlxalq Festivalında Şuşanın qoynunda ifa olunan milli musiqimizin sədalarının Şuşa dağlarına yayılması əlbəttə ki, böyük bir sevgimizin izharıdır. Şuşada ilk dəfə "Natəvan" operasının təqdimi böyük bir məna kəsb edir. Qarabağ xanının qızı, Azərbaycan şairi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına, o dövrdə Qarabağda baş verən ictimai-siyasi hadisələrə həsr olunan opera Şuşada ilk dəfə nümayiş olundu. Opera ilk dəfə Vasif Adıgözəlovun doğulduğu şəhərdə səsləndi. Bakıda dəfələrlə bu opera səsləndirilsə də, Şuşada opera başqa bir ovqat yaratmış oldu. Buradan süzülüb gələn musiqinin sədasını el-el, diyarbadiyar Azərbaycanı sevənlərə çatdırdı.

## ŞUŞA DAĞLARI HƏSRƏTLƏ YAŞADIĞI, ACIDIĞI MUSİQİMİZƏ, SƏNƏT DÜNYAMIZA QOVUŞUB

Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Hər daşı, hər abidəsi yenidən qurulur. Zəfər qazanan xalq hər qarış torpağına, məhz ruhuna uyğun olaraq nəfəs verir. Axı bu günü illərdir ki, gözləyirdik. Gözləyirdik ki, bizim yolumuzu gözləyən torpaqlarımıza nəfəs qataq. Əlimizlə, zəhmətimizlə, səsimizlə, addımlarımızla. Bu gün bizlərə nəsib oldu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dərəyələrinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir". Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub.

Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır.

## QAYNAR HƏYAT YAŞAYAN SƏNƏT OCAĞIMIZ TARİXİ GÜNLƏRİNİ YAŞAYIR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksi açılıb. Qeyd edək ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. 2021-ci ilin oktyabr ayından etibarən, Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

Bildiyimiz kimi, Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir. Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamız tarixi günlərini yaşayır. Bütün bu və ya digər tarix, mədəniyyət abidələrinin təmir və bərpası ilə yanaşı, dövlət başçısı tərəfindən Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin də təməli qoyulub. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Cənab Prezident çıxışlarını birində "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu", - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etmiş oldu.

***Zümrüd BAYRAMOVA***

# Ermənistanın sülh ritorikası ilə mövqeyi arasında ZİDDİYYƏTLƏR

**İllərdir müşahidə edirik ki, rəsmi İrəvanın danışıqlarla bağlı fikirləri ilə iddiaları və davranışları qətiyyən üst-üstə düşmür. Ümumiyyətlə, Ermənistan tərəfinin sülh sazişi, danışıqlar prosesi ilə bağlı mövqeyində yeganə dəyişməz olan prosesə mane olmaq planlarıdır. Ermənilərin yenə də bu "ənənəyə sadiqliyi", məhz erməni baş nazirinin iddialarında özünü göstərir və əgər Vaşinqton danışıqlarının növbəti raunduna Nikol Paşinyan özünün pafoslu ritorikası ilə hazırlaşırsa, deməli, pozuculuq niyyəti indidən bəlli olur.**




Vaşinqtonda gözlənilən danışıqların gündəliyi ilə bağlı münasibət bildirərək erməni baş nazir hökumətin iclasında deyib ki, guya İrəvanın mövqeyi dəyişməz olaraq qalır və sülhə nail olmaq, eləcə də sülh müqaviləsi ilə bağlı saziş imzalamaq üçün bütün səylər göstərilməlidir. Məsələ burasındadır ki, Paşinyanın irəli sürdüyü fikirlər heç də sülhə nail olmağa xidmət etmir. Onun dedikləri bir yığın sözdən başqa bir şey deyil. Bir halda ki, erməni baş nazir danışıqların növbəti raundu üçün absurd fikirlər, eləcə də məsələnin həllinə mane olan iddialar səsləndirir, deməli, burada məqsəd heç də sülh müqaviləsi ilə bağlı saziş imzalamaq deyil.

Xatırladaq ki, mayın əvvəlində Vaşinqtonda keçirilən nazirlərin görüşü barədə də dünya ictimaiyyəti məlumatlıdır. ABŞ-ın dövlət katibi Entoni Blinkenin iştirakı ilə hər iki ölkənin nümayəndələrinin görüşündən gözləntilər var idi. Hətta Amerika tərəfindən bu görüş iki ölkə arasında ikitərəfli münasibətlərdə mühüm irəliləyiş kimi qiymətləndirilib. Eyni zamanda bu görüşün sülh sazişinin imzalanmasına aparan yol olduğu da qeyd olunur, amma görünən odur ki, Ermənistan tərəfi həmin görüşdə də formal olaraq iştirak edibmiş və heç bir irəliləyişin olmaması bunu təsdiq edir. Etiraf edək ki, həqiqətən də sülh sazişinin imzalanması istiqamətində həmin görüşdən irəliləyişlər gözlənilirdi. Lakin gözləntilər özünü doğrultmadı və bu gün də söz söyləmək naminə Ermənistan tərəfindən, şəxsən erməni baş nazirinin dilindən guya məsələnin həlli ilə bağlı hansısa ifadələr səsləndirilirsə, bu, o demək deyil ki, növbəti görüş barədə nikbin proqnozlar vermək olar. Heç şübhəsiz ki, bu dəfə də Paşinyanın ənənəvi olaraq "sülh sazişinin və bütövlükdə regionda sülhün əldə edilməsinin zəruriliyi" ilə bağlı ritorikası o qədər də inam yaratmır. Çünki hamı çox yaxşı bilir ki, Nikolun sözləri həmişə olduğu kimi, sırf deklarativ xarakter daşıyır. Ən çox diqqətçəkən məqam odur ki, Ermənistan rəhbərliyinin davranışları, hər zaman erməni baş nazirinin sözləri ilə köklü şəkildə ziddiyyət təşkil edir.

Bir tərəfdən Nikol Paşinyan sülh sazişinin və bütövlükdə regionda sülhün əldə edilməsinin zəruriliyindən dəm vurur, digər tərəfdən sərhəddə erməni hərbçiləri təxribatlarını davam etdirirlər. Erməni baş naziri sülhün təminatı barədə danışır, amma atəşkəs rejimi Ermənistan tərəfindən demək olar ki, hər gün pozulur. Maraqlıdır, hakimiyyəti öz avantüristliyi ilə ələ keçirən beli çantalı küçə nümayişçisi manipulyasiya ənənəsinə sadiqlik göstərir, yoxsa erməni cəmiyyəti, yaxud Ermənistan hakimiyyəti onun fikirlərini hesaba almır? İstənilən halda rəsmi İrəvanın dəyişməz mövqeyindən də danışmaq mümkün deyil, sülhə doğru addım atmaq kimi bir niyyətindən də. Çünki Bakının guya Qarabağ ermənilərinə qarşı planlaşdırdığı "etnik təmizləmə" siyasəti yürütdüyü ilə bağlı Ermənistan tərəfi yalan informasiyaları hələ də dövriyyəyə buraxırsa, deməli, İrəvanın sülhə sadiqliyinə inanmaq mümkün deyil.

"Beynəlxalq Ədalət Məhkəməsinin fevralın 22-də Laçın dəhlizinin qarşısının alınması ilə bağlı qərarı icra edilməlidir və bu, BMT Təhlükəsizlik Şurası da daxil olmaqla beynəlxalq gündəmdə olan məsələdir, çünki Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarının icrasını həmin qurumun təmin etmək səlahiyyəti var. Bakı-Xankəndi beynəlxalq dialoq mexanizmi işə salınmalıdır və bu dialoq çərçivəsində Dağlıq Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələləri həll olunacaq", deyən Ermənistanın baş nazirinin, belə məlum olur ki, prosesə, məsələnin həllinə mane olmaq üçün bəhanələri artıq indidən hazırdır. Əgər bu dəfə də Paşinyanın dediyi kimi, İrəvan məhz Amerika danışıqlar platformasında "Laçın dəhlizinin qarşısının alınması" və "Dağlıq Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" tələblərini irəli sürmək niyyətindədirsə, deməli, Ermənistan tərəfi sülhə, yaxud sülh prosesinə başlanmasına yalnız əngəl yaratmaq fikrindədir.

Açıq-aşkar görünür ki, rəsmi İrəvanın mövqeyi həqiqətən də dəyişməz olaraq qalır və Nikol Paşinyanın son bəyanatları da təsdiq edir ki, Ermənistan hakimiyyəti hələ də danışıqlarda irəliləyiş istəmir. Erməni baş nazirinin fikirlərindən bəlli olur ki, məqsəd Bakı ilə sülhün bağlanmasına mane olmaqdan ibarətdir. İndidən bəlli olur ki, Ararat Mirzoyanla azərbaycanlı həmkarı Ceyhun Bayramov arasında Vaşinqtonda keçiriləcək növbəti görüşdə erməni nazir məsələnin həllinə mane olacaq həmin məqamları qabardacaq. Bəlli olur ki, Ermənistan tərəfi Laçın dəhlizi barədə, eləcə də guya humanitar fəlakət içərisində olan "bədbəxt Qarabağ ermənilər" və onların təhlükəsizliyi məsələsi haqda uydurmalar səsləndirərək yenə də məsələni uzatmaq üçün əlindən gələni edəcək. Yəni, tamamilə absurd fikirlər irəli sürərək, ən axmaq və inanılması belə mümkün olmayan, ziddiyyətlərlə dolu olan bədnam tələbləri onun yenidən bir daha səsləndirəcəyi gözlənilir. Buna görə də Ermənistan tərəfinin məkrli, hiyləgər siyasəti və pozuculuq niyyəti fonunda Vainqtinda keçiriləcək növbəti görüşdə də sülhə doğru irəliləyişlə bağlı nəyə isə ümid etmək sadəlövhlük olardı.

Belə məlum olur ki, rəsmi İrəvan hələ də özü üçün düzgün nəticə çıxara bilməyib. Moskvada, Brüsseldə və Vaşinqtonda olmaqla, üç müxtəlif platformada keçirilən Ermənistan-Azərbaycan danışıqlarının Paşinyanın hakimiyyət komandası üçün heç bir mənası olmayıb və onun komanda qətiyyən dərs ala bilməyib. Görünən odur ki, Ermənistan tərəfi nəinki sülh prosesinə, hətta danışıqlara belə zərbə vurmaq niyyətində olub və indi də bu niyyət ortadadır. Hələ də Paşinyan və onun komandası inadkarcasına məsələni uzatmaq, vaxt qazanmaq niyyətindədir və axmaqcasına da nəyə isə ümid edir. Bu gün günahlandrmaq məqsədi ilə Azərbaycan tərəfini ləkələməyə, eləcə də beynəlxalq ictimaiyyəti çaşdırmağa, diqqətini də başqa istiqmətə yönəltməyə çalışan Ermənistan tərəfi ölkəmizlə açıq-aşkar informasiya müharibəsi aparır və belə bir müharibə aparmaqla sülhdən dəm vurmaq qətiyyən üst-üstə düşmür və bu ziddiyyəti başa düşmək heç də çətin deyil. İşğalçı ölkənin genişmiqyaslı informasiya müharibəsi həmin ölkənin mətbuatında da öz əksini tapır. Elə məhz ermənilər tərəfindən qondarılan və yalandan uydurulan dırnaqarası "humanitar blokada" barədə erməni mətbuatının təxribat xarakterli yanlış məlumatları məsələnin nə yerdə olduğunu dərk etməyə kifayət edir.

Ziddiyyətlər rəsmi İrəvanın iddialarında da özünü göstərir. Məsələn, Qarabağın Azərbaycana məxsusluğu ilə bağlı Paşinyanın dili ilə etiraf edən İrəvanın bunun ardınca yalandan, "Laçın dəhlizinin blokadası" ilə bağlı fikirləri bir-biri ilə ancaq ziddiyyət təşkil edir. Bir halda ki, Qarabağ Azərbaycan ərazisidir və bunu da erməni baş nazir etiraf edərək dilə gətirir, o zaman hansı dəhliz və hansı təhlükədən söhbət gedə bilər. Azərbaycan öz ərazisində, özü də işğalı qonşu dövlətlə sərhəddə post qurduğu zaman dünya ölkələrindən, Fransa kimi ermənipərəst dövlətdən icazə almalı idi, yoxsa Ermənistandan? Necə olur ki, bir tərəfdən Paşinyan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır, amma "Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi" kimi uydurma məsələlər onun dilindən düşmür. Elə bu məqam özü təzad, ziddiyyət deyilmi? Yaxşı, belə ziddiyyətlərlə Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsindən dəm vurmaq, buna çalışdıqlarını iddia etmək necə, məntiqi görünürmü? Həminin, Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edən, bunu rəsmi şəkildə dilə gətirən Paşinyan Bakı ilə Qarabağ erməniləri arasında qondarma beynəlxalq dialoq mexanizmlərinin işə salınmasından hansı əsasla və hansı üzlə danışır? Ona elə gəlmirmi ki, özü də başda olmaqla bütövlükdə hakimiyyət komandası burunlarını Azərbaycanın daxili işlərinə soxmaq istəyirlər və bunun adı başqasının işlərinə qarışmasından başqa bir şey deyil.

Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan kənardan göstərişə heç bir ehtiyac duymur və belə bir göstəriş qəbul edilən də deyil. Ruben Vardanyan kimi üçüncü bir tərəfə, başqa bir dövlətin apardığı siyasətə maşa olan, alət olan birinin simasında kimlərləsə danışmaq, danışıqlar aparmaq kimi arzuları ermənilərin ancaq ürəyində qalacaq. Separatçılarla hansı danışıqdan söhbət gedə bilər? Azərbaycan 44 gün müharibə aparıb, şəhid verib, şanlı qələbə qazanıb ki, sonra da onlarla danışıqlar aparsın? Bu nə məntiqsiz yanaşmadır ki, bunu olmayan ağıllarına də gətirirlər. Danışıqlar aparan elə əvvəlcədən qan tökülmədən həmin danışıqları aparmazdımı? Qalib bir ölkənin danışıqlara ehtiyacı varmı? Yəni, həqiqətən Paşinyan hakimiyyəti, yaxud belə bir fikir səsləndirən və onlarla eyni ağılda olanlar başlarını itiriblər, yoxsa özlərini axmaqlığa qoyublar? Azərbaycan tərəfi Qarabağın erməni əhalisinin nümayəndələri ilə birbaşa dialoq apara bilər və bunu üstəlik öz ərazilərində, özü də Azərbaycan Konstitusiyası çərçivəsində edər və bunu təklif də edib. Amma separatçılarla danışıqları arzu edənlər çox böyük xəyallara düşüblər, hansı ki, elə əməlləri, niyyətləri, mövqeləri ilə arzuları da ziddiyyət təşkil edir.

***İnam Hacıyev***

# Milli Məclis 20 məsələni müzakirə etdi, yeni qanunlar qəbul edildi

*Qəbul edilən yeni qanunlar hansı yeniliklər vəd edir?*



Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti iclası keçirilib. İclasın gündəliyində 20 məsələ müzakirə edilib. Bildirilib ki, birinci məsələ Məhkəmə-Hüquq Şurasının üzvünün təyin edilməsi haqqında Milli Məclisin qərar layihəsidir. Azərbaycan Prezidentinin təqdimatı ilə iyunun 9-da "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunda dəyişiklik edildiyini bildirən Sahibə Qafarova bununla əlaqədar Şuranın təşkili qaydasının dəyişdirildiyini deyib. Qanunda edilən dəyişikliyə əsasən, Məhkəmə-Hüquq Şurasının tərkibinin yenidən formalaşdırıldığı diqqətə çatdırılıb. Sonra Milli Məclis tərəfindən Şuranın üzvlüyünə deputat Nizami Səfərovun namizədliyin irəli sürülüb.

İclasda N.Səfərovun Məhkəmə-Hüquq Şurasının üzvü təyin olunması haqqında Milli Məclisin qərar layihəsi qəbul edilib. Gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda qanun layihələri olub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Kosmik fəaliyyət haqqında" qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri sənəd barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verildiyini deyərək bildirib ki, qanun ölkəmizdə kosmik fəaliyyətin hüquqi, iqtisadi və təşkilati əsaslarını, kosmik sənayedə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair ümumi tələbləri müəyyən edir və Yerətrafı orbitlərdə, Ay və digər səma cisimləri və onların orbitləri daxil olmaqla, kosmik fəzada milli fəaliyyətə aid edilən münasibətləri tənzimləyir. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

S.Qafarova növbəti 4 məsələnin - "İstehsalat və məişət tullantıları haqqında" Qanunda, İnzibati Xətalar Məcəlləsində, Gömrük Məcəlləsində, "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu, məzmun və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, sənədə heç bir əlavə və dəyişikliyin edilmədiyini deyərək, olduğu kimi səsə qoyulmasını xahiş edib.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli digər iki məsələni - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş) və "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini diqqətə çatdırıb. O, hər iki layihənin "Tullantılar haqqında" Qanunla əlaqədar olduğunu deyib. Bildirib ki, təklif olunan dəyişikliklərdə həmin qanunun tələblərinin pozulmasına görə inzibati məsuliyyət və utilizasiyaya gedən nəqliyyat vasitələrinin uçotdan çıxarılması məsələsi öz əksini tapıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, bu layihənin "Tullantılar haqqında" Qanundan irəli gələrək hazırlandığını, əvvəlki iki oxunuş zamanı əlavə heç bir dəyişikliyin edilmədiyini söyləyib və sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Komitə sədri Sadiq Qurbanov rəhbərlik etdiyi komitənin son 3 məsələ barədə müsbət rəy verdiyini diqqətə çatdırıb. O, məsələlərlə bağlı səsləndirilən bəzi fikir və qeydlərə münasibət bildirib. Sonra təqdim edilən bu 4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq, üçüncü oxunuşda qəbul olunub.

Parlamentin sədri növbəti məsələnin - "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin də məzmun və mahiyyətinə görə bundan əvvəl qəbul edilən qanunlara yaxın olduğunu, uyğunlaşdırma xarakteri daşıdığını bildirib. O, bu sənədin müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Əli Məsimli qanun layihəsini təqdim edərək bildirib ki, bu sənəd "İstehsalat və məişət tullantıları haqqında" qanunun adının dəyişdirilməsi ilə əlaqədar hazırlanıb. Qanunun müvafiq maddəsində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin digər 6 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu bildirən S.Qafarova məsələlərin mahiyyətcə bir-birinə yaxın olan, ikinci oxunuşda təqdim edilən qanun layihələri olduğunu diqqətə çatdırıb. Sonra Tahir Mirkişili "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş), Vergi Məcəlləsində dəyişiklik edilməsi (ikinci oxunuş), "Lisenziyalar və icazələr haqqında" və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrini təqdim edib.

O deyib ki, qanunlara edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi sahəsində tənzimləmənin təkmilləşdirilməsi, fəaliyyətin effektiv və səmərəli şəkildə idarə edilməsi, avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yükdaşıma xidmətlərinin keyfiyyətinin və təhlükəsizliyinin artırılması, əməyin mühafizəsinin təmin olunması, bu fəaliyyət növlərinə ölkəmizdə tətbiq edilən icazələrin təkmilləşdirilməsi məqsədi daşıyır. Daha sonra Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi (ikinci oxunuş) və "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrinə dair məlumat verib.

Diqqətə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyəti və sanksiyaları nəzərdə tutur. "Yol hərəkəti haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklər isə "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıyır. Tahir Mirkişili rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu iki qanun layihəsi barədə müsbət rəy verdiyini söyləyib.

Müzakirələr zamanı deputatlar Fazil Mustafa, Sevil Mikayılova, Müşfiq Məmmədli fikir və qeydlərini diqqətə çatdırıblar. İclasda iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov qaldırılan məsələlərə aydınlıq gətirib. Müzakirələrin yekununda təqdim olunan bu 6 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin son 7 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, Minatəmizləmə Agentliyinin fəaliyyəti dövründə, o cümlədən 44 günlük Vətən müharibəsindən sonra minalardan təmizlənmiş ərazilər, aşkar edilmiş mina və partlayıcı hərbi sursat ilə əlaqədar statistik göstəriciləri diqqətə çatdırıb.

Əsasnaməyə görə, "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" yubiley medalı ilə minatəmizləmə fəaliyyətinin təşkili, təkmilləşdirilməsi, inkişafı və möhkəmləndirilməsi sahələrində xüsusi xidmətləri olan Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər. Deputatlar Bəhruz Məhərrəmov və Hikmət Məmmədov məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin sədri növbəti 3 məsələnin də yeni medalların təsis edilməsi ilə bağlı olduğunu və ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu deyib. O, bu məsələlərin - "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyini təmin edən orqanın 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi, "Azərbaycan Respublikasının strateji obyektlərin mühafizəsi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi və "Azərbaycan Respublikasının xüsusi rabitə və informasiya təhlükəsizliyi orqanlarının 30 illiyi (1993-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu bildirib.

Nizami Səfərov həmin 3 qanun layihəsi barədə məlumatı diqqətə çatdırıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Komitə sədri Tahir Mirkişili "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, layihə ölkə Prezidentinin müvafiq fərman və sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin və "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə əlaqədar nəzərdə tutulmuş ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

Komitə sədri diqqətə çatdırıb ki, 9 fəsil, 68 maddədən ibarət olan qanun ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin son iki məsələsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə yaxın olduğunu bildirib. Komitə sədri Tahir Mirkişili "Dövlət satınalmaları haqqında" qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. O, 10 fəsil, 59 maddədən ibarət qanun layihəsinin ölkədə dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını və qaydalarını müəyyən etdiyini deyib. Sənədin hazırlanması zamanı qabaqcıl beynəlxalq təcrübənin nəzərdən keçirildiyini söyləyib.

Bildirilib ki, qanunda dövlət satınalmalarının əsas prinsipləri, təchizatçıların satınalmalarda iştirakı, saxtakarlıq hallarının aradan qaldırılması, məxfiliklə bağlı qaydalar müəyyənləşdirilir. Bəzi deputatlar təqdim olunan məsələlər barədə fikirlərini və bəzi qeydlərini səsləndiriblər. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonda Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq tarixinə əbədi həkk olunub. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib, əzəli və tarixi torpaqlarımız - Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən azad olunub.

Milli Məclisin sədri vurğulayıb ki, tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyi və fədakarlığı biz heç zaman unudulmayacaq. O, Azərbaycan Silahlı Qüvvələrinin qarşıdakı illərdə daha da inkişaf edəcəyinə və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcəyinə əminliyini ifadə edib.

II YAZI

# Azad torpaqlarımız: Laçınlaşan Laçın

Dövlətimizin başçısının may ayının 27-də və 28-də Laçına ikigünlük səfəri bu qədim yurd yerinin yenidən qurulması və bərpasına yeni töhfələrlə tarixin səhifələrinə yazıldı. Hər bir Azərbaycan vətəndaşı isə bu səfərin qürurunu yaşadı. Ona görə ki, torpaqlarımızı azad edən Milli Ordumuzun müzəffər sərkərdəsi cənab İlham Əliyev bu gün də həmin torpaqların dirçəlməsi üçün yorulmaz fəaliyyət göstərir. Elə həmin günlərin xronikası bütün bunları söyləməyə kifayət edir.




## Laçında məşğulluq diqqət mərkəzindədir

Torpaqlarımız 30 illik erməni işğalından azad olundu. İkinci planda daşı daş üstündə qalmayan yurd yerlərimizin bərpası oldu ki, sakinlər orada rahatlıqla yaşaya bilsinlər. Üçüncü növbədə isə ata-baba ocağına köçən insanların məşğulluğunun təminatıdır ki, ən vacib məsələlərdən bir də elə budur. Çünki insanın məşğulluğu onun yaşayış səviyyəsi, sosial rifahı deməkdir. Bütün bunlar isə Qarabağda və Şərqi Zəngəzurda mərhələli və ardıcıl şəkildə həyata keçirilir.

Laçın şəhərində də istehsalat, xidmət və tədris müəssisələrinin yaradılması, məşğulluğun artırılması istiqamətində işlər davam etdirilir. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Müəssisələr qida, sənaye, yaradıcılıq, tekstil, tədris, turizm və xidmət sahələrində fəaliyyət göstərəcək. Hazırda fəaliyyət göstərən 7 müəssisədə 226 Laçın sakini işlə təmin edilib.





Prezident İlham Əliyev Laçına səfəri çərçivəsində şəhərdə Aqro və Sənaye Parkında aparılan işlərlə tanış olub.

Məlumat verilib ki, Aqro və Sənaye Parkında ümumilikdə 46 müəssisə fəaliyyət göstərəcək, onların da 80 faizinin bu il yay aylarının sonunadək işə başlayacağı nəzərdə tutulub. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan müəssisə, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi yaradılacaq. İyun ayından artıq keramik məhsullar fabriki fəaliyyətə başlayacaq. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili də nəzərdə tutulub.

Prezident İlham Əliyev yolüstü balıq istehsalı müəssisəsinə də baxıb.

## Zabux sakinlərini qarşılamağa hazırlaşır

Yurd salmaq ata-babalarımızdan savab əməl sayılıb. Hələ düşünəndə ki, o yurdlar işğaldan azad edilən ərazilərdə salınır və elə torpaqların azad olunması da həmin kəndləri yenidən bərpa edən müzəffər sərkərdənin adı ilə bağlıdır, bu, tarixə qızıl hərflərlə yazılan anlardır. Qarabağ və Şərqi Zəngəzurda hazırda görülən bütün işlər bu qədim yurdların azadlığından sonra həyata keçirilən abadlığıdır.

Laçının Zabux kəndi də sakinlərinin qayıtması üçün hazırlanır. Mayın 27-də Laçında səfərdə olan dövlətimizin başçısı Zabux kəndində aparılan tikinti işləri ilə tanış olub.

Ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib.

Zabux kəndində evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilməsi nəzərdə tutulub. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək. Yetiriləcək ki, yaxın gələcəkdə ata-baba yurdlarına qayıdan zabuxlular heç bir problemlə üzləşməsinlər.

Prezident cənab İlham Əliyev laçınlılarla görüşü zamanı bu barədə demişdir: Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik.

## Laçının yeni küçələri: Heydər Əliyev, Zəfər, 28 May, Xosrov bəy Sultanov, Zəngəzur və "1 Dekabr"

Qarabağ və Şərqi Zəngəzurun bərpasında və yenidən qurulmasında diqqətçəkən əsas məqamlardan biri yeni küçələrin salınması və həmin küçələrin əksəriyyətinin ölkəmizin böyük şəxsiyyətləri, tarixi, mədəniyyəti, uğurları ilə əlaqələndirilməsidir. Bütün bu adlar isə azad yurdlarımızın müasirliyə qədəm qoymasının nümayişi ilə yanaşı, hər biri turizm bölgəsi olan yurd yerlərimizin gələcək qonaqlarına verəcəyi məlumatları özündə ehtiva edir.

Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərində Heydər Əliyev, Zəfər, 28 May, Xosrov bəy Sultanov, Zəngəzur və "1 Dekabr" küçələrinin kəsişməsində istiqamət bildirən lövhələrin açılışını edib.

Laçın şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan küçənin uzunluğu 6967 metr, eni isə 10-12 metr təşkil edir.

Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 5239, eni isə 12 metrdir. 28 May küçəsinin uzunluğu 1703, eni isə 10 metr nəzərdə tutulur. Xosrov bəy Sultanov küçəsinin uzunluğu 1329 metr, eni 12 metr olacaq. Zəngəzur küçəsinin uzunluğu isə 2142 metr, eni isə 10 metr təşkil edəcək.

Prezident İlham Əliyev həmin gün həmçinin Laçın şəhərində uzunluğu 1566 metr, eni isə 10 metr olan və diplomatik yolla işğaldan azad olunduğu tarixə əsasən, "1 Dekabr" adı verilmiş küçədə lövhənin açılışını edib.

Şəhərin memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq bu küçələrində ən müasir infrastruktur yaradılacaq.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtüyü götürüb.

## Laçına qayıdan laçınlılar

Mayın 28-də Müstəqillik Günündə dövlətimizin başçısı Laçına qayıdan laçınlılarla görüşüb, onlarla yanaşı, bütün Azərbaycan xalqını Laçından Müstəqillik günü münasibətilə təbrik edib və laçınlılara evlərinin açarlarını təqdim edib. Bu üç böyük hadisənin qürurunu yaşamaq isə həqiqətən də 30 il torpaq həsrəti ilə yaşayan hər bir azərbaycanlının böyük sevinci, xoşbəxtliyidir.

Prezident İlham Əliyev: Bu görüşü məhz 28 May tarixində təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir.

Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır.

"Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək" deyən dövlətimizin başçısı onu da vurğulayaraq qeyd etdi ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

Dövlətimizin başçısı laçınlılarla çox ətraflı, tarixi söhbətinin sonunda demişdir: Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.








Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

Sonra dövlətimizin başçısı Laçın şəhərinə qayıdan sakinlərə evlərin açarlarını təqdim etdi.

Sakinlər dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Sakin Elbrus Sadıqov: Cənab Prezident, xoş gördük. Mən çoxdan arzulayırdım ki, Sizi qucaqlayım öpüm. Şükür Allaha arzuma çatdım. Çox sevinirəm. Allah Sizin canınızı sağ eləsin. Sizinlə fəxr edirik.

Sakin İsaq Musayev: Cənab Prezident, mən də Sizə həm "Çox sağ olun!" deyirəm, həm də Sizi təbrik edirəm. Sizə cansağlığı, hərbçilərimizə uzun ömür, sağlamlıq, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Qazilərimizə, əlillərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun ki, bu günü bizə nəsib etdiniz.

## Laçının Baş Planı: "15 dəqiqəlik şəhər"

Laçına səfəri çərçivəsində dövlətimizin başçısına Laçın şəhərinin Baş planı təqdim olundu və məlumat verildi ki, Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, yaşıl enerji mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

Qeyd olundu ki, Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

## Laçında da İşğal və Zəfər muzeyləri yaradılır

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerləyeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır. Belə muzey komplekslərindən biri də Laçında yaradılır.

Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirak edib.

Bildirilib ki, Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir.

Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir.

İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək. Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial Park salınacaq. Memorial Parka daxil olan dağıntılar bədii instalyasiyalarla zənginləşdiriləcək açıq səma altında muzeyə çevriləcək.

Dövlətimizin başçısı Laçın İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoydu.

Muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən və Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

## Yeni məhəllədə 1630 nəfər yaşayacaq

Layihələndirilən yaşayış məhəlləsi Laçın şəhərinin cənub-qərb hissəsində 16,3 hektar ərazidə planlaşdırılıb. Ərazidə müasir tipli yaşayış binaları və şəhər sakinlərinə xidmət göstərəcək idman kompleksinin inşası nəzərdə tutulub. Təklif layihəsində binaların memarlıq kompozisiya həlli və yerləşməsi ərazinin relyefi, demoqrafik tələbləri, sosial, məişət və sanitar xüsusiyyətləri nəzərə alınaraq hazırlanıb.

Yaşayış binaları üzrə ümumi sayı 462 olmaqla birotaqlı 45, ikiotaqlı 126, üçotaqlı 180 və dördotaqlı 108 mənzil nəzərdə tutulub. Məhəllədə 1630 nəfərin yaşaması planlaşdırılıb. Ərazidəki idman sağlamlıq mərkəzində müxtəlif idman növləri üzrə və üzgüçülük hovuzu ilə birlikdə iaşə obyektləri, inzibati və digər köməkçi sahələr yaradılacaq.

Dövlətimizin başçısı ticarət obyekti, açıq idman meydançası, uşaq əyləncə və istirahət sahələrinin yaradılması nəzərdə tutulan yaşayış məhəlləsinin təməlini qoyub.

Prezident İlham Əliyev həmin gün həmçinin son tamamlanma işləri aparılan idman kompleksi ilə tanış olub.

## Quşlar təbiətə, balıqlar Həkəri çayına buraxılıb

30 il işğal altında qalan torpaqlarımızın zəngin flora və faunası ermənilər tərəfindən məhv edilmiş, nadir ağaclar kəsilərək bazarlara çıxarılmış, yeraltı və yürüstü sərvətlərimiz talan edilmişdir. Hazırda azad topraqlarımızda tək bərpa işləri həyata keçirilmir, həmçinin təbiətin də qayğısına qalınır. Flora və faunanın əvvəlki həddə çatdırılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir. Çünki Qarabağ və Şərqi Zəngəzur coğrafiyası, təbiəti ilə daha füsunkar, cazibədardır.

Dövlətimizin başçısı mayın 28-də Laçında səfərdə olarkən Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində iştirak edib.

Məlumat verilib ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsli tükənib.

Bildirilib ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5-8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb.

Dövlətimizin başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində otuz ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Qırmızı kitab"ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. Otuz ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

## Laçına qələbə cığırı açanların ruhu şad olsun!

II Vətən müharibəsi tariximizin parlaq səhifələrini təşkil edir. Bu parlaqlığı çox məqamlar xarakterizə edir. Dövlət-xalq birliyi, həmrəylik, vətənpərvərlik, torpaq sevgisi, bayraq sevdası, ölümün üzünə dik baxmaq əzmi və sair. Lakin biz nəsil üçün daha önəmli olan bir məqam da var ki, 30 illik Qarabağ yaralarını sağaldan həkimlər məhz bir nəslin övladlarıdır. 30 ildə sağalmaq bilməyən, qanı süzən, qaysaq bağlamayan yaraları 30 il əvvəl o acı günlərin hər birinin canlı şahidi olanların övladları sardı. Bu yaraların üstünə öz qanlarını məlhəm edib çəkdilər. 30 ilin yaraları 44 gündə sağaldı. Bu yaraları sağaldanlar həm də torpaqlarımızın nisgildən kor olan gözlərinə məlhəm oldular. Torpaq canlandı, özünə gəldi, bayrağına, insanına, yurddaşına qovuşdu. Onların - o həkimlərin, o şəhidlərin hesabına. Qürur duyduğumuz, qarşılarında əbədiyyən baş əydiyimiz igid oğullarımızın hesabına geri alındı yurd yerlərimiz. Onlar öz gənc ömürlərini torpağın azadlığına, milli mənliyin xilasına, bir də ata-babalarının torpaq təşnəsinə qurban verib bizi torpaqlı, elli, yurdlu etdilər. Üzərimizdən qaçqınlığı, köçkünlüyü götürdülər. Və tarix durduqca Qarabağın şahinlərinə, yaraların təbibinə çevrildilər. Laçına da qələbə cığırlarını o igidlər açdılar. Ruhunuz şad olsun, Vətən oğulları!

**_Mətanət Məmmədova_**

ŞƏRH + AKTUAL

# Foreign Affairs: "İran Zəngəzur dəhlizinin açılmasına qarşıdır"




Fakt budur ki, İran Zəngəzur dəhlizinin açılmasına qarşı çıxması ilə regional inkişafın qarşısını alır. Xüsusilə, Tehran rejiminin "qırmızı xəttin keçilməsi" və s. tipli siyasi avantüraları, habelə Azərbaycanla sərhədlərində irimiqyaslı hərbi təlimlər keçirməsi, eləcə də Naxçıvanla sərhəd ərazilərə "təlim" adı altında qoşun yığması, artıq nüfuzlu Qərb medialarının da diqqətindən yayınmır. ABŞ-da dərc edilən və ildə 6 dəfə işıq üzü görən, eləcə də beynəlxalq münasibətlər və siyasət mövzuları ilə tanınan nüfuzlu Firegin Affars dərgisi də sözügedən məsələ ilə bağlı geniş məqalə ilə çıxış edib. Jurnal qeyd edir ki, Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın qurudakı iki hissəsini - Naxçıvan Muxtar Respublikasını və ölkənin yerdə qalan ərazilərini birləşdirəcək. Lakin belə olan halda İranın Ermənistanla rabitəsi kəsiləcək ki, bu da həmin ölkələrin iki ümumi sərhədləri anlamını daşıyır.

Nəşr yazır: "İran Ermənistanı Avrasiya ilə birləşdirən mühüm tərəf qismində görür və regionun beynəlxalq səviyyədə tanınan sərhədlərinin dəyişikliyinə qarşı çıxış edir, əks halda hərbi güc tətbiq edəcəyi təhdidlərini irəli sürür. İranın ali dini rəhbəri Ayətullah Əli Xamenei Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü zamanı İranla Ermənistan arasında baryerin yaradılması ilə bağlı xəbərdarlıq etmişdi və iddia irəli sürmüşdü ki, bu marşrut "minilliklər boyu mövcud olub".

Foreign Affairs qeyd edir ki, ikinci Qarabağ müharibəsi regionda yeni reallıqları yaradıb və şiə din xadimlərinin hakimiyyəti altında idarə edilən İran xristian ölkə olan Ermənistana iqtisadi dəstək göstərib, hansı ki, Rusiya uzun zaman Ermənistana himayədarlıq edib. "Bununla yanaşı, İsrail və sünni çoxluğu ilə seçilən Türkiyə şiələrin çoxluq təşkil etdiyi Azərbaycanla strateji ittifaqda təmsil olunurlar", - deyə nəşr yazır.

Məqaləyə əsasən, Azərbaycanla İran arasındakı münasibətlər özünün ən ağır dövrlərini yaşayır. Xüsusilə, İran Azərbaycanın İsraillə münasibətlərinin yaxşı olmasından güclü təlaş keçirir: "Son illər İran İsrailin Fars körfəzindəki ərəb monarxiyası ilə yaxınlaşmasını müşahidə edir və bu da Tehrana qarşı ümumi düşmənçilik münasibəti ilə bağlıdır. İndi isə iranlılar İsrailin əhalisinin əsas çoxluğunun türklərdən ibarət olan iki ölkə ilə analoji dinamikasından narahat olmağa başlayıblar".

ABŞ nəşri əlavə edir ki, bu xüsusda İranın Azərbaycanla münasibətləri get-gedə daha gərgin hala doğru inkişaf edir. Belə ki, son iki ildə İranın nizami ordusu və İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) Azərbaycanla sərhədlərdə irimiqyaslı təlimlər keçirib: "Gərginlik yanvar ayında daha da artıb və bu da Azərbaycanın Tehrandakı səfirliyinə edilən silahlı hücumla, bir nəfərin həlak olması, iki nəfərin isə yaralanması ilə bağlıdır. Bakı bu hadisəni terror aktı adlandırdı və səfirlik əməkdaşlarını təxliyyə etdi. İranın rəsmi şəxsləri isə hadisənin səbəblərinin siyasi deyil, mülki olduğunu iddia etdilər".

Foreign Affairs həmçinin bildirir ki, martın 28-də davamlı olaraq anti-İran fikirləri ilə gündəmdə olan Azərbaycan deputatına silahlı hücum olub. Bundan sonra Azərbaycanda İrana işləyən iri şəbəkə ifşa olundu, eləcə də İranın Bakıdakı səfirliyinin 4 əməkdaşı persona non qrata elan edildilər.



FOREIGN AFFAIRS

*Afət Tahirqızı*

# Ulu Öndərin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir

## Goranboy rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib







"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Goranboy rayon təşkilatı iyunun 24-də rayon Mədəniyyət Mərkəzində tədbir keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra "Şəhidlər" abidə kompleksi ziyarət edilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Prezident İlham Əliyev ölkəmizə möhtəşəm nailiyyətlər qazandırıb.

Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev söyləyib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir.

YAP Veteranlar Şurasının sədr müavini, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyib. O bildirib ki, Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

YAP İdarə Heyətinin üzvü, AMEA-nın müxbir üzvü, professor Amin İsmayılov vurğulayıb ki, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin tarixi uğurlara imza atdığını söyləyib.

Goranboy rayon Quşçular ərazi partiya təşkilatının sədri Ruhiyə Məmmədova, partiya fəalı Gündüz Hacıyev çıxışlarında qeyd ediblər ki, inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı Fəxri fərman və təşəkkürnamə ilə təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.




# Mədəniyyət xəzinəmiz

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır. Mütaliəyə marağın artması, kitabxana-oxucu əlaqələrinin genişlənməsi, kitab müzakirələrinin keçirilməsi, mütaliənin sevdirilməsi və oxucularda mütaliə mədəniyyətinin formalaşdırılması Milli Kitabxananın da qarşısında duran əsas vəzifələrdən biridir.

Kitabxana Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirərək, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayaraq mühafizə edir. Azərbaycanın ən böyük kitabxanası olaraq Qafqazda və Avropada ən böyük milli kitabxanalardan biri olan Azərbaycan Milli Kitabxanasınının fondlarında saxlanılan nəşrlərin sayı 5 milyon nüsxədən artıqdır.

1923-2007-ci illər ərzində Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondunda cəmi 1000 adda Azərbaycan dilində qəzet (bunlardan 182 adda rayon qəzeti - regional mətbuat), 427 adda rus və digər SSRİ xalqları dilində olan qəzet, bundan başqa, 696 adda Azərbaycan və 1439 adda rus dilində jurnal, 718 adda 40-a yaxın xarici dildə jurnal və 50 addan çox qəzet, həmçinin ümumilikdə 53 550 qovluq qəzet və 1 416 000 nüsxə jurnal mövcud olduğu müəyyənləşdirilmişdir.

Kitabxana Azərbaycan Respublikası Xalq Maarif Komissarlığının 13 noyabr 1920-ci il tarixli 53 nömrəli qərarına əsasən yaradılmış, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olmuşdur. Kitabxana yarananda onun fonduna İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin və Bakı İctimai Cəmiyyətinin kitabxanalarının fondlarından 5000 nüsxə kitab verilmişdir. Mənbələrdə qeyd olunduğu kimi, 1923-cü ildən sürətlə inkişaf etməyə başlayan kitabxana əsas diqqəti fondun komplektləşdirilməsinə vermişdir. 1925-ci ildə o öz fondunda 51000, 1928-ci ildə isə 300 min adda kitab, jurnal, qəzet kart və digər çap məhsullarını toplaya bilmişdir. Təkcə 1928-ci ildə xaricdən 50 adda dövri mətbuat alınmışdır. Oxucuları 3183 nəfər: onlardan 2957-si kişi, 226-sı isə qadın olmuşdur. Kitab verilişi isə 2576 nüsxə təşkil etmişdir. İlk biblioqrafik göstəricilər 1927-ci ildə hazırlanmağa başlanmışdır. Ümumiyyətlə o dövrdə Şərqə artaq maraqla bağlı olaraq "Şərq haqqında jurnal materialları (1917-1927)", "1927-ci ildə Şərq haqqında SSRİ ədəbiyyatı" adlı göstəricilər bu silsilədəndir. 13 nəfər işçi ilə fəaliyyətə başlayan kitabxananın ilk direktoru M.Səlimov olmuşdur. Kitabxanada oxu zalı 1927-ci ildə açılmışdır. Oxu zalı hər gün saat 10-dan axşam saat 10-a kimi açıq idi. Kitabxana Azərbaycan Elmlər Akademiyasının binasında bir neçə otaqda yerləşirdi. Bu da onun iş fəaliyyətini genişləndirməyə imkan vermirdi. Buna baxmayaraq artıq 1928-ci ildə kitabxana 6 şöbədən: Şərq, Rus, Qərbi Avropa, Xüsusi şöbə, Xidmət və Biblioqrafiya bürosundan ibarət idi.

Statistik rəqəmlərə istinadən, hazırda Milli Kitabxanada 25 şöbə, 26 bölmə fəaliyyət göstərir. Kitabxana fondunda 4 milyon 513 min çap məhsulu saxlanılır. Milli Kitabxana artıq kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana - biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir. 2004-ci ildə Nazirlər Kabinetinin qərarı ilə kitabxanaya "Milli Kitabxana" statusu verilmişdir. "Kitabxana işi haqqında" və "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən Milli Kitabxana ölkə ərazisində dərc olunan nəşrlərdən pulsuz məcburi nüsxələr alır və onların əsasında milli mətbuatın arxiv fondunu yaradır. Bunun nəticəsi olaraq 2005-ci ildə kitabxanaya 21000 nüsxə yeni ədəbiyyat daxil olmuşdur. İl ərzində oxucuların sayı 34000 nəfərə, kitabxanaya gələnlərin sayı isə 245000 nəfərə çatmışdır. İxtisaslaşdırılmış Xarici ədəbiyyat şöbəsi 2005-ci ildən beynəlxalq kitab mübadiləsini bərpa edərək, dünyanın 60-a yaxın kitabxanası ilə əlaqə yarada bilmişdir.

Artıq kitabxananın "Kitabxana siyasəti və metodik rəhbərlik" şöbəsi kitabxanalara virtual rejimdə metodik köməklik göstərməyə başlamışdır. Bu iş forması nəticəsində Milli Kitabxananın hazırladığı materiallar və vəsaitlər, tövsiyələr kitabxananın saytında yerləşdirilir və nəticədə bütün nəşrlər çap olunmamışdan və yerlərə göndərilməmişdən kitabxanaçıların ixtiyarına verilir.

Belə bir zəngin tarixi yola malik olan Azərbaycan Milli Kitabxanasının bu il 100 illiyidir. Kitabxananın 100 illik yubileyinin qeyd olunması ilə bağlı Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir. Yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş Azərbaycan Milli Kitabxanası daim zənginləşərək xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir. Özünəməxsus memarlıq üslubuna malik əzəmətli binada yerləşən Milli Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***





# "Güclü və sağlam gələcək naminə!"



Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq iyunun 24-də Gəncə şəhərində Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü və BMT-nin "Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü" ilə əlaqədar "Güclü və sağlam gələcək naminə!" mövzusunda tədbir keçirilib.

Gəncə şəhəri Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə Gəncə, Daşkəsən, Goranboy, Göygöl, Samux, Naftalan, Xocalı və Kəlbəcər rayonunu təmsil edən fəal gənclər və "N" saylı hərbi hissənin əsgərləri iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini dərin hörmət və ehtiramla anıblar. Tədbirdə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov çıxış edərək 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Bayram Aslanov qazanılan 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin hər bir azərbaycanlı üçün qürurverici olduğunu, bu yolda xidmətləri olan Vətən övladlarının daim iftixarla xatırlandığını vurğulayıb. YAP Gəncə şəhər təşkilatının sədri müasir dünyada cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəb olan, faciəvi nəticələrə gətirib çıxaran narkomaniyanın fəsadlarından danışaraq gəncləri asudə vaxtlarını səmərəli keçirməyə, zərərli vərdişlərdən uzaq olmağa çağırıb.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva maarifləndirmə işlərinin narkomaniyaya qarşı mübarizədə ən güclü vasitə olduğunu bildirib. "Narkomaniya ilə mübarizə və onun profilaktikası sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir" ,- deyən Zəkiyyə Musayeva gənclərin zərərli vərdişlərdən uzaq olması üçün həyata keçirilən tədbirlərin davamlı xarakter daşımasının əhəmiyyətinə diqqəti yönəldib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Ruslan Həsənov cəmiyyətdə hər kəsi düşündürən ən ağrılı problemlərdən biri olan "ağ ölüm" kimi tanınan narkomaniya bəlasının insan həyatında sağalmaz fəsadlar yaratdığını qeyd edib, ölkəmizdə narkomaniyaya qarşı həyata keçirilən genişmiqyaslı maarifləndirmə tədbirlərinin mütəmadi xarakter daşıdığını vurğulayıb.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev narkomaniya ilə mübarizə sahəsində ictimai nəzarətin əhəmiyyətindən danışıb. Bu sahədə həyata keçirilən mübarizə tədbirlərindən bəhs edən Raqif Allahverdiyev "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyini qeyd edib.

Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov narkotik maddələrdən istifadənin fəsadları, narkomaniyanın insanların sağlamlığına mənfi təsirləri barədə ətraflı məlumat verilib.

Vətən müharibəsi iştirakçısı Mətin Abdinov gəncləri vətənpərvər, ölkəmizə layiqli vətəndaş olmağa, Vətəni hər zaman qorumağa çağırıb və zərərli vərdişlərdən uzaq durmağı tövsiyə edib. Sonra iştirakçıları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb. Sonda "Güclü və sağlam gələcək naminə!" devizi altında qaçış idman növü üzrə marafon keçirilib.

# Moskva mühasirəyə alınır

## Vladimir Putin Rusiyadakı hadisələri 1917-ci il faciəsi ilə müqayisə edib

Son illərin ən böyük siyasi-hərbi hadisəsi Rusiya- Ukrayna müharibəsidir. Artıq 17 aya yaxındır ki, Rusiya Ukraynanı xarabazarlığa çevirən qanlı müharibə aparır. 17 aya yaxındır ki, Ukraynanın şəhərləri, qəsəbələri bombalanır, hər gün yüzlərlə insan öldürülür, şikəst edilir. Müharibə qatilləri isə qanasusamış kimi qanlı cinayətlərini davam etdirirlər. Çalışırlar ki, daha çox insanın ölümünə, daha çox şəhər və kəndlərin dağıdılmasına baiskar olsunlar. Lakin Vaqner özəl hərbi qüvvələrinin Rusiya Müdafiə Nazirliyinə qarşı müharibə ?lan etməsi onu deməyə əsas verir ki, yaxın vaxtlarda Ukrayna ərazisində müharibə sona çata bilər. Yəni, Rusiyanın başı öz ağır probleminə qarışdığından, Ukrayna asanlıqla torpaqlarını azad edəcək. Yayılan informasiyalara görə, artıq "Vaqner" təsisçisi Yevgeni Priqojin iyunun 24-də səhər saatlarında Rostov-na-Donu şəhərində Rusiya müdafiə nazirinin müavini Yunus-Bek Yevkurov və Baş Qərargah rəisinin müavini Vladimir Alekseyevlə görüşüb. Priqojin söhbətində bildirib ki, "Vaqner" Baş Qərargah rəisi Valeri Gerasimovu və müdafiə naziri Sergey Şoyqunu "ələ keçirənə qədər" muzdlular "Rostov şəhərini blokadaya alacaq və "Moskvaya gedəcəklər".

## Priqojin: "Biz Rostovu bloklayırıq və Moskvaya gedirik"



Ukrayna kanallarının da yaydığı məlumatlara görə, artıq "Vaqner"çilər Rostovda Rusiya Cənub Hərbi Dairəsinin binasını mühasirəyə alıb və ələ keçirib. Voronej vilayətinin qubernatoru Aleksandr Qusev 464-cü kilometrdən 777-ci kilometrədək M-4 Don şossesi boyunca hərəkətin bağlandığını elan edərək, tıxac yarandıqda bütün vətəndaşlara operativ reaksiya vermək və kömək etmək tapşırıldığını bildirmişdi. Avtomobil yolunun bağlanması ilə əlaqədardır. Bütün Rusiya ərazisində avtomobillərin, qatarların, aviasiyanın hərəkətində məhdudiyyətlər yaranıb. Vəziyyətin getdikcə ağırlaşdığı bildirilir. Bu arada Priqojin bəyan edib ki, Rostova yol boyu artıq 60-70 nəfər asayiş keşikçisi "Vaqner"çilərin tərəfinə keçib. Onun fikrincə, Rusiya ordusunun yarısı muzdluları dəstəkləməyə hazırdır.

"Vaqner" Xüsusi Hərbi Şirkətinin döyüşçüləri Rostov-na-Donu və ətraf şəhərləri, o cümlədən Voronej şəhərində bütün hərbi obyektləri nəzarətə götürüblər. Şəhər qubernatoru məlumatı təkzib etməyə çalışsa da, insanlar KİV-lərə xəbərin doğru olduğunu qeyd ediblər. Voronej vilayətinin qubernatoru Aleksandr Qusev bildirib ki, zirehli maşın karvanının gəldiyinə dair bölgədə yalan məlumatlar yayılıb. Onun sözlərinə görə, Rusiya Silahlı Qüvvələri əvvəlcədən elan edilmiş antiterror əməliyyatı çərçivəsində operativ-döyüş tədbirləri həyata keçirir.

Məlumat üçün qeyd edək ki, "Vaqner" Xüsusi Hərbi Şirkətinin başçısı Yevgeni Priqojin Rusiya hərbçilərinin "Vaqner" muzdlu hərbi təşkilatının arxa düşərgələrinə raket zərbələri endirdiyini, bir çox döyüşçünün öldüyünü açıqlayıb: "Bu vəhşiliyə necə cavab verəcəyimizə qərar verəcəyik. Növbəti addım bizimdir". Bundan sonra Rusiya Federal Təhlükəsizlik Xidməti Yevgeni Priqojinə qarşı silahlı üsyana təhrik faktı üzrə cinayət işi açıb. Rusiya Federasiyasının Baş Prokurorluğu bildirib ki, Priqojinin əməllərinə lazımi hüquqi qiymət veriləcək. Müdafiə Nazirliyi isə "Vaqner"in arxa düşərgələrinə zərbə endirilməsi ilə bağlı iddiaları yalan məlumat adlandırıb. Nazirlik eyni zamanda, "Vaqner" döyüşçülərinə müraciət edib, silahı yerə qoymağa çağırıb.

Baş verən qarşıdurma ilə bağlı Ukrayna Prezidenti Volodimir Zelenski tviterdə yazıb ki, Rusiya uzun müddətdir öz zəifliyini və hökumətinin axmaqlığını ört-basdır etmək üçün təbliğat aparırdı. İndi isə o qədər xaos var ki, heç bir yalanı gizlədə bilməz: "Rusiyanın zəifliyi göz qabağındadır. Rusiya öz qoşunlarını və muzdlu qüvvələrini torpaqlarımızda nə qədər çox saxlasa, sonradan bir o qədər böyük xaos və bir o qədər çox problem yaşayacaq. Bu, göz qabağındadır. Ukrayna Avropanı Rusiyanın gətirdiyi fəlakətdən və xaosun yayılmasından qorumağa qadirdir". V. Zelenski qeyd edib ki, şər yolunu seçən hər kəs özünü məhv edir: "Biz möhkəmliyimizi, birliyimizi və gücümüzü qoruyuruq. Bütün komandirlərimiz və əsgərlərimiz nə edəcəklərini bilirlər".

### Rusiya vətəndaş müharibəsinə sürüklənir

Şimali Osetiya rəhbəri Sergey Menyailo Rusiyada silahlı üsyana cəhdlə bağlı vəziyyəti şərh edərək, "Vaqner" PMC sıralarında xidmət edən həmyerlilərini Yevgeni Priqojinin cinayətkar əmrlərinə tabe olmamağa çağırıb. Bu barədə o, teleqram kanalında yazıb."Sərflərində çoxlu oğlanlarımızın olduğu PMC "Wagner"-in döyüşçüləri cəbhədə cəsarətlə vuruşur, ölkəmizi müdafiə edir. Amma Priqojinin bu gün etdiyi şey öz ölkəsinə qarşı cinayətdir! Rusiya xalqına qarşı cinayət. PMC rəhbəri həddən artıq oynadı, öz gücünə həddən artıq inandı", - Menyailo bildirib. Onun sözlərinə görə, Priqojin Rusiyanı daxildən "qoparmaq", ölkəni qardaş müharibəsinə sürükləmək qərarına gəlib. Şimali Osetiya rəhbəri PMC-lərdən olan osetinləri Vaqnerin rəhbərinə qulaq asmamağa çağırıb və onun respublikasının bütün sakinlərini xaricə getməməyə və təxribatlara uymamağa çağırıb. Bundan əvvəl KP.RU xəbər vermişdi ki, Rusiya FSB rəhbərliyi də PMC üzvlərini Priqojinin əmrlərinə tabe olmamağa çağırıb.

Vladimir Putin "Vaqner" PMC-nin qaldırdığı silahlı üsyanı rəsmən şərh edib. O, müraciətində həm ordunun əsgərlərinə, həm də özəl hərbi şirkətin döyüşçülərinə müraciət edib: - Mən Rusiya vətəndaşlarına, Silahlı Qüvvələrin, hüquq-mühafizə orqanlarının və xüsusi xidmət orqanlarının şəxsi heyətinə, hazırda öz döyüş mövqelərində vuruşan, düşmənin hücumlarını dəf edən, bunu qəhrəmancasına yerinə yetirən döyüşçü və komandirlərə müraciət edirəm - bilirəm, həm dünən gecə yenə bütün istiqamətlərin komandirləri ilə danışdı. Hiylə və ya hədə-qorxu ilə kriminal avantüraya sürüklənən, ağır cinayət yoluna - silahlı üsyana sövq edilənlərə də müraciət edirəm.Vladimir Vladimiroviç etiraf etdi ki, biz üsyanla üzləşmişik. Üstəlik, elə bir vaxtda "biz xalqımızın həyatı və təhlükəsizliyi, suverenliyimiz və müstəqilliyimiz uğrunda mübarizə aparırıq. Rusiya olmaq və qalmaq hüququ üçün - min illik tarixi olan bir dövlət. Xalqımızın taleyinin həll olunduğu bu döyüş bütün qüvvələrin birləşməsini, birliyi, konsolidasiyasını, məsuliyyətini tələb edir. Prezident xatırladıb ki, bizi zəiflədən hər şey kənara atılmalı, xarici düşmənlərimiz bizi daxildən sarsıtmaq üçün istifadə edə və istifadə edə bilər. O, əlavə edib ki, qaldırılan üsyan "ölkəmizin və xalqımızın arxasına vurulan bıçaqdır".

Rusiya lideri indiki hadisələri 1917-ci il faciəsi ilə müqayisə edib. - 1917-ci ildə, ölkə Birinci Dünya Müharibəsi gedən zaman Rusiyaya elə bir zərbə vurulmuşdu. Lakin qələbə ondan oğurlandı. İntriqalar, çəkişmələr, ordunun və xalqın arxasınca aparılan siyasət ən böyük sarsıntıya çevrildi, ordunun məhvi və dövlətin dağılması, geniş ərazilərin itirilməsi oldu. Nəticədə - vətəndaş müharibəsinin faciəsi, - V.Putin bildirib. O qeyd edib ki, bütün bunların təkrarlanmasına imkan verməyəcək: "Qarşılaşdığımız şey məhz xəyanətdir. Həddindən artıq ambisiyalar və şəxsi maraqlar xəyanətə gətirib çıxardı. Ölkəmizə, xalqımıza, "Vaqner" qrupunun əsgər və komandirlərinin digər birlik və bölmələrimizlə çiyin-çiyinə vuruşaraq həlak olduğu məqsədə xəyanət etdilər". Vladimir Putin çıxışında açıq şəkildə "Vaqner" PMC-nin sahibi Yevgeni Priqojinin adını çəkməyib. Amma ittihamları ilə Priqojini qiyamda günahlandırıb: "Üsyan təşkil etməyə çalışanlar ölkəni anarxiyaya, qardaş qırğına sürükləyirlər. Ancaq onlar məğlub olacaqlar. Vətəni belə təhlükədən qorumaq üçün hərəkətlərimiz sərt olacaq. Xəyanət yoluna qəsdən qədəm qoyan, silahlı üsyan hazırlayan, şantaj yoluna, terror üsullarına əl atanların hamısı qaçılmaz cəzaların çəkəcək, həm qanun qarşısında, həm də xalqımız qarşısında cavab verəcəklər. Silahlı Qüvvələr və digər dövlət qurumları lazımi göstərişlər alıb və hazırda Moskvada, Moskva vilayətində və bir sıra digər regionlarda əlavə antiterror tədbirləri tətbiq edilir". Rusiya lideri Rostov-na-Donuda çətin vəziyyətin yarandığını etiraf edib. "Vaqner"" PMC-nin döyüşçüləri bir çox hakimiyyəti bloklayıblar: "Rostov-na-Donuda vəziyyətin sabitləşməsi üçün də qətiyyətli addımlar atılacaq. Çətin olaraq qalır, mülki və hərbi orqanların işi faktiki olaraq əngəllənib. Rusiya Prezidenti və Ali Baş Komandan kimi, Rusiya vətəndaşı kimi mən ölkəni müdafiə etmək, konstitusiya quruluşunu, vətəndaşların həyatını, təhlükəsizliyini və azadlığını qorumaq üçün hər şeyi edəcəyəm.

### Müharibə canilərini ağır cəza gözləyir

Müraciətin sonunda Vladimir Putin üsyan təşkilatçılarını bir daha "Rusiyaya xain" adlandırıb. Sonra PMC-nin sıravi əsgərlərinə müraciətində əlavə edib: "Bu cinayətə sürüklənənləri ölümcül və faciəvi, bənzərsiz səhvə yol verməməyə, yeganə düzgün seçim etməyə - cinayət əməllərində iştirakdan əl çəkməyə çağırıram. İnanıram ki, biz özümüz üçün əziz və müqəddəs olanı xilas edib müdafiə edəcəyik və Vətənimizlə birlikdə istənilən sınaqdan çıxacağıq, daha da güclənəcəyik".

"Vaqner" Xusisi Hərbi Şirkətinin rəhbəri Yevgeni Priqojin Rusiya Prezidenti Vladimir Putinin müraciətinə sərt formada cavab verib. O bildirib ki, "Biz Rusiyanın bundan sonra da korrupsiya şəraitində yaşamasını istəmirik: "Heç kim Federal Təhlükəsizlik Xidmətinin başçısının təslim olunması fikrində deyil. Biz ölkənin korrupsiya içində yaşamasını istəmirik. Ukrayna ilə müharibə aparıldığı açıqlananda vuruşublar. Ancaq belə çıxır ki, hər şey oğurlanıb. İndi onlar mülki vətəndaşları vururlar, çünki içəri girə bilmirlər. Bizə qarşı çıxanlar isə əclafların ətrafına toplaşanlardır".

Priqojin V. Putinin təslim olmaq tələblərini də rədd edib və: "Biz etiraf etməyəcəyik. Biz öz vətənimizin vətənpərvərləriyik. Biz istəmirik ki, ölkədə hiylə, korrupsiya və bürokratiya hökm sürsün".

Bu arada verilən məlumata görə, Ukrayna silahlı qüvvələri genişmiqyaslı əməliyyatları çərçivəsində işğal altında olan torpaqlarını azad etməkdədir. Xerson Vilayəti ilə Krım yarımadasını birləşdirən körpünün partladılmasından sonra Rusiya ordusunun vəziyyəti ağırlaşıb. Vaqner özəl hərbi qüvvələrinin qiyam qaldırmalarından sonra durum daha da ağırlaşıb. Bununla yanaşı, onlara "Rusiya könüllüləri" korpusu Rusiyanın içərilərinə doğru əməliyyatlarını davam etdirməkdədirlər. Belqorod vilayətində yerləşən Qrayvoron şəhərində yaşayış binasına pilotsuz təyyarə partlayıcı qurğu atıb. Belə bir bəyanatı şənbə günü, iyunun 24-də vilayətin qubernatoru Vyaçeslav Qladkov özünün Teleqram kanalında verib və qeyd edib ki, hazırda əməliyyat xidmətləri fəsadları aradan qaldırmağa başlayıb."Qrayvoron şəhərində şəxsi yaşayış binasına drondan partlayıcı qurğu atılıb. Ölən və yaralananlar olmayıb. Fasad və qaz borularında zədələr var", - deyə rayon rəhbəri bildirib.

Qeyd edək ki, bir gün əvvəl, iyunun 23-də Qladkov Ukrayna Silahlı Qüvvələrinin (AFU) Belqorod vilayətində sutka ərzində 100-ə qədər mərmi atdığını bildirmişdi. Region rəhbərinin aydınlaşdırdığı kimi, Ukrayna ordusunun əksər mərmiləri Volokonovski rayonunda atılıb - 48-i, 14-ü Starı fermasının kənarına düşüb. Bütün bu kimi hadisələr onu deməyə əsas verir ki, yaxın vaxtlarda müharibə Ukraynanın xeyrinə dəyişəcək. Nəzərə almaq lazımdır ki, Vaqner hərbi qüvvələri Moskvaya doğru hərəkət etməkdədirlər. Yaxın vaxtlarda, bəlkə də yaxın saatlarda Moskva şəhəri tam şəkildə mühasirəyə alına bilər. Bununla da müharibə ən qısa müddətdə başa çatacaq. Moskvada da müşahidə edilir. Moskva meri Sobyanın Rusiya paytaxtında təhlükəsizlik tədbirlərinin gücləndirilməsi barədə məlumat verib. Onun sözlərinə görə, Moskvada antiterror əməliyyatları aparılır, kütləvi tədbirlərə məhdudiyyətlər qoyulur. Moskva vilayətində də təhlükəsizlik tədbirləri görülür. Hüquq-mühafizə orqanları və FTX tərəfindən vəziyyətə nəzarət haqqında Moskva ətrafının qubernatoru Andrey Vorobyov məlumat verib. Baş prokuror İqor Krasnov Rusiya prezidenti Vladimir Putinə Yevgeni Priqojinə qarşı hərbi qiyama cəhdlə əlaqədar cinayət işinin açılması barədə məruzə edib. Müvafiq maddə 12 ildən 20 ilədək həbs cəzası nəzərdə tutur. Sosial şəbəkələrdə hərbi formada olan adamların Rusiya Müdafiə Nazirliyinin binasını təcili surətdə tərk etdiyi barədə məlumat yayılıb. İnsanların qaçışının nə ilə bağlı olduğu və haraya istiqamət götürdüyü barədə deyilmir.Təbii ki, hər kəsi bir sual düşündürür, müharibəni başlayıb, yüz minlərlə insanı öldürüb, milyonlarla insanı didərgin salanların aqibəti necə olacaq? Söz yox ki, canilərin bir qismi öldürüləcək, digərləri isə hərbi tribunal qarşısına çıxarılaraq ömürlük azadlıqdan məhrum ediləcəklər.

**İ.ƏLİYEV**

DELTA AUDIT

# Müstəqil Auditorun Hesabatı

**"GP SOY PROCESSİNG"**

**Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**Rəhbərliyinə**

**Rəy**

Biz **"GP SOY PROCESSİNG" MMC-nin** (bundan sonra – Cəmiyyət) 31 dekabr 2022-ci il tarixinə olan konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan, konsolidasiya edilmiş mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatdan, konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üçün konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, "Rəy üçün əsaslar" bölməsində əks etdirilmiş məsələlərin nəticələri istisna olmaqla, əlavə edilmiş konsolidasiya edilmiş maliyyə hesabatları 31.12.2022-ci il tarixinə Cəmiyyətin konsolidasiya edilmiş maliyyə vəziyyətini, həmçinin həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əməhiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azərbaycan Respublikasındakı konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin konsolidasiya edilmiş maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.
- Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan, yalnız mövcud şərtlərdə müvafiq olacaq audit prosedurlarının hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi haqqında məlumat əldə edirik.
- Tətbiq olunan uçot siyasətinin, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların müvafiqliyini qiymətləndiririk.
- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlər ilə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**15 may 2023-cü il**

**"DELTA AUDİT" MMC-nin direktoru,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**
**Auditor:**

**Səmədov Elnur Əlirza oğlu**

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq,tikili,avadanlıqlar | 5 | 5 749 578.49 | 4 063.62 |
| Qeyri-maddi aktivlər | 6 | - | - |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | 231 609.53 | - |
| Asılı və birgə müəssisələrə investisiyalar | 8 | 477 356.52 | - |
| Sair uzunmüddətli aktivlər | 9 | - | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **6 458 544.54** | **4 063.62** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 10 | 19 222 046.64 | 6 884 165.39 |
| Ticari debitor borclar | 11 | 6 150 502.80 | 2 358 055.15 |
| Sair qısamüddətli aktivlər | 12 | 4 742 563.78 | 196 349.28 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | 14 289.39 | 42 718.85 |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 1 440 188.73 | 849 521.59 |
| **Cəmi qısamüddətli aktivlər** | | **31 569 591.34** | **10 330 810.26** |
| **Cəmi aktivlər** | | **38 028 135.88** | **10 334 873.88** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14 | 5 765 160.00 | 100.00 |
| Kapital ehtiyatları | 14a | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14b | 148 717.94 | 165 000.02 |
| Asılı müəssisələrin bölüşdürülməmiş mənfəətində (zərərində) pay | 8 | 559 698.93 | |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | 2 334 068.48 | 2 173 266.07 |
| **Cəmi kapital** | | **8 807 645.35** | **2 338 366.09** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | 10 000 000.00 | - |
| Uzunmüddətli alınmış borclar | 16 | - | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | - | 34 729.11 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **10 000 000.00** | **34 729.11** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticari kreditor borclar | 20 | 10 688 381.41 | 306 781.04 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 9 267.66 | 9 719.10 |
| Qısamüddətli alınmış borclar | 23 | 2 606 100.00 | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 5 916 741.46 | 7 645 278.54 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **19 220 490.53** | **7 961 778.68** |
| **Cəmi öhdəliklər** | | **29 220 490.53** | **7 996 507.79** |
| **Cəmi kapital və öhdəliklər** | | **38 028 135.88** | **10 334 873.88** |

GP SOY PROCESSİNG

Direktor: İslamzadə Nəsib
"GP SOY PROCESSİNG" MMC

Baş mühasib:

M.Y.

*"01" may 2023-cü il*

7

11-31-ci səhifələrdə göstərilən qeydlər bu konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## Konsolidasiya edilmiş mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 25 | 44 573 294.39 | 5 191 622.57 |
| Satışın maya dəyəri | 25 | (43 041 028.16) | (5 157 716.90) |
| **Məcmu mənfəət** | | **1 532 266.23** | **33 905.67** |
| Ümumi və inzibati xərclər | 27 | (1 683 924.73) | (77 596.57) |
| **Faiz, vergi və amortizasiyadan əvvəlki mənfəət** | | **(151 658.50)** | **(43 690.90)** |
| Torpaq ,tikili və avadanlıqlar üzrə amortizasiya | 3 | (352 846.43) | (68.88) |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 4 | (646.14) | - |
| **Faiz, vergidən əvvəlki mənfəət (Əməliyyat mənfəəti)** | | **(505 151.07)** | **(43 759.78)** |
| Digər qeyri-əməliyyat gəliri və ya (xərci) | 26 | 739 790.97 | 250 569.62 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **234 639.90** | **206 809.84** |
| Mənfəət vergisi xərci (20%) | | (86 336.74) | (41 809.82) |
| **Hesabat dövrünün xalis mənfəəti / (zərəri)** | | **148 303.16** | **165 000.02** |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri) aiddir:** | | | |
| **Qrupun səhmdarlarına (payçılarına)** | | **148 717.94** | |
| **Qeyri-nəzarət paylarına** | | **(414.78)** | |

GP SOY PROCESSİNG

Direktor: İslamzadə Nəsib
"GP SOY PROCESSİNG" MMC

Baş mühasib:

M.Y.

*"01" may 2023-cü il*

8

11-31-ci səhifələrdə göstərilən qeydlər bu konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

DELTA AUDIT

## Müstəqil Auditorun Hesabatı

**"ABŞERON TAXIL"**

**Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**Rəhbərliyinə**

### Rəy

Biz **"ABŞERON TAXIL" MMC-nin** (bundan sonra – Cəmiyyət) 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, "Rəy üçün əsaslar" bölməsində əks etdirilmiş məsələlərin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları 31.12.2022-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmçinin həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əməhiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

### Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azarbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

### Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan, yalnız mövcud şərtlərdə müvafiq olacaq audit prosedurlarının hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi haqqında məlumat əldə edirik.

- Tətbiq olunan uçot siyasətinin, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların müvafiqliyini qiymətləndiririk.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlər ilə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**09 iyun 2023-cü il**

**"DELTA AUDİT" MMC-nin direktoru,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**
**Auditor:**

**Səmədov Elnur Əlirza oğlu**

"ABŞERON TAXIL" MMC
31 dekabr 2022-ci il tarixində bitmiş il üzrə

*(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq,tikili,avadanlıqlar | 5 | 10 403 679.96 | 715 432.39 |
| Qeyri-maddi aktivlər | 6 | 3 140 000.00 | - |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu | 8 | - | - |
| Təxirə salınmış vergi aktivləri | 17 | - | - |
| Sair uzunmüddətli aktivlər | 9 | 4 583 142.04 | 1 594 310.55 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **18 126 822.00** | **2 309 742.94** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 10 | 37 125 907.00 | 12 267 111.00 |
| Ticari debitor borclar | 11 | 19 831 251.00 | 4 203 351.47 |
| Sair qısamüddətli aktivlər | 12 | 35 750.00 | - |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | 105 207.00 | 228.47 |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 1 624 854.00 | 350 867.16 |
| **Cəmi qısamüddətli aktivlər** | | **58 722 969.00** | **16 821 558.10** |
| **Cəmi aktivlər** | | **76 849 791.00** | **19 131 301.04** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14a | 18 104 055.07 | 20.00 |
| Kapital ehtiyatları | 14b | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14c | - | 963 701.00 |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | - | 2 681 249.83 |
| **Cəmi kapital** | | **18 104 055.07** | **3 644 970.83** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | 25 002 083.33 | 3 011 083.33 |
| Uzunmüddətli alınmış borclar | 16 | - | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | 10 025 107.62 | 10 025 107.62 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **35 027 190.95** | **13 036 190.95** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticari kreditor borclar | 20 | 16 444 412.98 | 2 374 973.35 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 98 621.00 | 75 165.91 |
| Qısamüddətli alınmış borclar | 23 | - | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 7 175 511.00 | - |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **23 718 544.98** | **2 450 139.26** |
| **Cəmi öhdəliklər** | | **58 745 735.93** | **15 486 330.21** |
| **Cəmi kapital və öhdəliklər** | | **76 849 791.00** | **19 131 301.04** |

Baş direktor: Tağıyev Maşallah
"ABŞERON TAXIL" MMC

Baş mühasib: Kərimli Rəşad

ABŞERON TAXIL

*"01"may 2023-cü il*

## Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2022 | 2021 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 25 | 99 253 064.73 | 50 598 571.02 |
| Satışın maya dəyəri | 25 | (95 062 344.13) | (52 909 708.78) |
| **Məcmu mənfəət və ya (zərər)** | | **4 190 720.60** | **(2 311 137.76)** |
| Ümumi və inzibati xərclər | 27 | (2 768 378.78) | (1 681 600.62) |
| **Faiz, vergi və amortizasiyadan əvvəlki mənfəət / (zərər)** | | **1 422 341.82** | **(3 992 738.38)** |
| Torpaq ,tikili və avadanlıqlar üzrə amortizasiya | 5 | (936 129.43) | (31 805.29) |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 6 | - | - |
| **Faiz və vergidən əvvəlki mənfəət və ya (zərər) / Əməliyyat mənfəəti və ya (zərəri)** | | **486 212.39** | **(4 024 543.67)** |
| Digər qeyri-əməliyyat gəliri və ya (xərci) | 26 | (387 747.31) | 5 247 784.31 |
| **Vergiqoymadan əvvəl mənfəət / (zərər)** | | **98 465.08** | **1 223 240.64** |
| Vergitutma məqsədləri üçün gəlirdən çıxılmayan xərclər | 28 | 197 554.98 | 74 457.55 |
| Mənfəət vergisi üzrə azadolmalar və güzəştlər | | - | - |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | - | - |
| Vergitutma məqsədləri üçün mənfəət / (zərər) | | 296 020.06 | 1 297 698.19 |
| Mənfəət vergisi (20%) | | (59 204.01) | (259 539.64) |
| **Vergi uçotu üzrə hesabat dövrünün xalis mənfəəti / (zərəri)** | | **236 816.05** | **1 038 158.55** |
| **Hesabat dövrünün xalis mənfəəti / (zərəri)** | | **39 261.07** | **963 701.00** |

Baş direktor: Tağıyev Maşallah
"ABŞERON TAXIL" MMC

Baş mühasib: Kərimli Rəşad

ABŞERON TAXIL

*"01"may 2023-cü il*

8

11-29-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# Sertifikasiya oyunbazlığı



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqamətində hazırlanıb.*





**Bir neçə gün əvvəl metroda 2 tanış müəllimi gördüm, salamlaşdıq, oradan-buradan söhbət əsnasında məlum oldu ki, sertifikasiya imtahanına hazırlıq üçün kursdan, repetitor yanından qayıdırlar. Müəllimlər də müəllim yanına gedirmiş yəni...**

Müəllimlərin sertifikasiya nəticələri də paylaşılır bu aralar sosial şəbəkələrdə, imtahandan çıxan müəllimlərin sevinci əks olunur görüntülərdə. Aralarında gənc müəllimlər də var, 55-60 yaşlı müəllimlər də. Müəllimlər imtahanda yığdıqları yüksək bala ona görə sevinirlər ki, maaşları artacaq. Təsəvvür edin, 50-60 yaşlı müəllim maaşı artacaq deyə biliyinin test edilməsi rəzalətinə qatlaşmalıdır. Bilik test edəsi potensiala malik müəllimlərin biliyi yoxlanır...

Prosesdən sonra sertifikasiyadan müvəffəqiyyətlə keçən müəllimlərin əmək haqqına müvafiq qaydada əlavələr olunacaq. Nəticə etibarilə belə çıxır ki, 60 yaş və daha yuxarı yaşı olan müəllimlər bu prossesdən könüllü və ya könülsüz iştirakdan imtina etsə əmək haqqının stimullaşdırıcı hissəsi onlara şamil olunmayacaq. Amma 60 yaşdan yuxarı müəllimlər könüllü şəkildə imtahanda iştirak edə, əməkhaqqına əlavə ala bilərlər. Sertifikasiyadan 30-50 bal yığan müəllimlər 10%, 51-60 bal yığanlar isə 35% artım alacaqlar.

20-30 ildir müəllim işləyən müəllimlərin imtahanına niyə ehtiyac görülür? Təkmilləşməsinə, peşə yeniliklərindən yararlanması, maaş artımı üçün olduğu iddia edilir, lakin illik seminar və kurslarla da bunu etmək olardı. 30 ildir şagird hazırlayan, özü məktəb olan müəllimi kimlər, niyə, nə üçün imtahana çəkməlidir? Nazirlik universitetlərin verdiyi təhsilə güvənmir demək, verdiyi diplomun sertifikasiya təsdiqini gözləyir.

Müəllimlər başını itirir sertifikasiya ərəfəsində. Mcburən məktəbdəki dərslərini atırlar bir kənara, imtahana hazırlaşırlar. Əgər müəllimləri imtahan edəcəksə o zaman müvafiq nazirlik bunun üçün imkan və şərait yaratmalıdır müəllimə. Pullu kurs yerinə dövlət kursları, imtahana salınacaq mövzu siyahısı, vahid kurikulum-metodika vəsaiti və sınaq imtahanları təqdim etməlidir. Ekspertlər fənlər üzrə imtahanlar, orada istifadə olunacaq testlərin mahiyyətini izah etməlidir. Müəllim, məktəb şagirdi qəbul imtahanına hazırlaşdığı kimi imtahana hazırlaşmamalıdır, o öz imtahanını zamanında verib, illərdir müəllimlik edərək biliyini də sübut edib, əməkhaqqı da bu illərinə görə hesablanmalı, gənc həmkarından daha yüksək məvacib almalıdır. İşə qəbul mərhələsində gənc kadrlar onsuz da MİQ imtahanına girir, biliyinin sayəsində iş yeri qazanır. 50-60 yaşındakı müəllimin biliyini yoxlamaqda məqsəd nədir?

Sertifikasiyaya heç bir ali məktəbdə öyrədilməyən materialların salınması da çox absurddur. Repetitor köməyi ilə sertifikasiyaya hazırlaşan müəllimlər bu material barədə məlumatlı olur, bəs repetitorsuz hazırlaşan müəllimlər?

Sertifikasiya aparılırsa o zaman bütün təhsil işçiləri - müvafiq nazirlik də daxil imtahandan keçsin. Müəllimə heç bir təlim, treninq təşkil etmədən sertifikasiyaya göndərmək doğru deyil. Hər gün bir sistem tətbiq edilən təhsilimiz oyuncaq olmamalıdır. Baloniya, kurikulum sistemləri tətbiq edilirsə, məktəblərdə bu sistemlərin tətbiqi üçün müvafiq şərait yaradılmalıdır. Nazirlik məktəblərin böyük əksəriyyətində kurikulumla tədris aparmaq üçün avadanlıqların, kompüterlərin, digər resursların olmadığını bilmir?

Sertifikasiyada 50-dən çox bal yığan müəllimlər, əlbəttə alqışlanmalıdır. Lakin 30-40 bal yığan müəllimlərə qarşı olan stiqma da yığışdırılmalıdır. Müəllim də insandır, imtahan ərəfəsində həyəcanlana, texnoloji bacarıqlarının az olması səbəbindən kompyuterləşdirilmiş imtahana adaptasiya ola bilməyə də bilər. Azərbaycan təhsili tək 50 baldan yuxarı toplayan müəllimlərin nəticəsi üzərində qurulmayıb. Şagirdi öyrətmək, yaxşı pedaqoq olmaq bala görə müəyyən edilmir, edilməməlidir. Siz o müəllimin sinifdəki performansının, universitetə qəbul olan şagirdlərinin sayını öyrənin.

***Lalə Mehralı***

# AzerTelecom və Kazakhtelecom Transxəzər Fiber-Optik Rabitə Xətti layihəsi çərçivəsində müqavilə imzalayıb

**“AzerTelecom” və ”Kazakhtelecom” arasında Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə Transxəzər Fiber-Optik Rabitə Xəttinin tikintisi və istismarı üzrə birgə müəssisənin yaradılmasına dair Səhmdarlar müqaviləsi imzalanıb. Layihənin mühüm hissəsi olan bu müqavilə onun yekunlaşdırılması istiqamətində tərəflərin birgə səylərini və fəaliyyətlərini əks etdirir. Sənəd ”AzerTelecom” şirkətinin daxil olduğu NEQSOL Holding-in Telekom rəhbəri Vasil Latsaniç və ”Kazaktelecom”un İdarə Heyətinin sədri Kuanışbek Yesekeyev tərəfindən imzalanıb.**



Sənəd özündə birgə müəssisənin məqsəd və vəzifələrini, xüsusilə idarəetmə məsələlərini, eləcə də Azərbaycan-Qazaxıstan marşrutu üzrə Transxəzər Fiber-Optik Rabitə Xəttinin tikintisinə və istismarına dair müddəaları əks etdirir.

Transxəzər Fiber-Optik Rabitə Xətti ”Rəqəmsal İpək Yolu” (Digital Silk Way) layihəsinin Asiya seqmenti olaraq bağlantı xidmətlərinin göstərilməsi üçün rəqəmsal infrastrukturun inkişafında və Avropa ilə Asiyanı birləşdirəcək rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasında xüsusi rol oynayır.

NEQSOL Holding-in Telekom rəhbəri Vasil Latsaniç müqaviləni şərh edərək vurğulayıb ki, Transxəzər Fiber-Optik Rabitə Xətti regionları birləşdirərək və coğrafi sərhədləri aşaraq yüksək tutumlu məlumatların ötürülməsinə imkan verəcək.

”AzerTelecom” və ”Kazakhtelecom” arasında əməkdaşlıq yeni bazarlara çıxışın yaradılmasına, ölkələrin internetdən istifadə etməsi, eləcə də məlumatların ötürülməsi imkanlarının yaxşılaşdırılmasına öz töhfəsini verəcək. Bununla yanaşı, Xəzər dənizinin dibi ilə çəkiləcək ilk sualtı kabel marşrutunun yaradılması, bu layihəni unikal edən amillərdən biridir”, - deyə Vasil Latsaniç bildirib.

”AzerTelecom” şirkətinin Əməliyyatlar üzrə Baş direktoru Sergey Nazarenkonun sözlərinə görə, birgə müəssisənin yaradılması regionumuzun kommunikasiya infrastrukturunun mənzərəsini dəyişəcək, eləcə də ölkələrin və bizneslərin rəqəmsal inkişafı üçün böyük imkanlara qapı açacaq maraqlı bir səyahətin yeni mərhələsidir.

”Kazakhtelecom” şirkətinin İdarə Heyətinin sədri Kuanışbek Yessekeyev qeyd edib ki, ”Kazakhtelecom” və ”AzerTelecom” öz sahələrində aparıcı şirkətlər olaraq bu layihənin transformasiya potensialını yüksək qiymətləndirir və onu reallaşdırmaq üçün qüvvələrini birləşdiriblər. ”Biz birlikdə Transxəzər Fiber-Optik Rabitə Xəttinin uğurlu tikintisini və istismarını təmin etmək üçün təcrübəmizi, resurslarımızı və baxışımızı birləşdirəcəyik”, - deyə o, qeyd edib.

”AzerTelecom” Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur və NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. NEQSOL Holding 9 ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir.

”Kazakhtelecom” Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli telekommunikasiya operatoru statusuna malikdir.

SON SƏHİFƏ

SƏS

25 iyun
2023-cü il



## Birotaqlı mənzillərin sayı niyə azalıb?

"Azərbaycanda mövcud olan köhnə çoxmənzilli yaşayış binalarına nəzər salsaq, doqquzmərtəbəli binaların yalnız kənar blok olan hissələrində birotaqlı mənzillər mövcuddur. Beşmərtəbəli binalarda isə demək olar ki, hər blokda sıra şəklində bir, iki və üçotaqlı mənzillər olur. Bəzi arxitektur proyektlərdə isə ümumiyyətlə, birotaqlı mənzillər nəzərdə tutulmayıb". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, yeni tikili binalarda isə birotaqlı mənzillərə tələbat həddən artıq çoxdur: "Ümumilikdə birdəfəlik alınıb, daha sonra kirayə verilir deyə satışda daim birotaqlı mənzillərin sayı az olur. Satışda daha çox üç və dördotaqlı mənzillər olur ki, onların da qiymətləri baha olduğu üçün tələbat bir o qədər böyük olmur. Doqquzmərtəbəli köhnə tikili binalardakı birotaqlı mənzillər ipoteka predmetinə çevrildiyi üçün satışa çıxarılan kimi tez bir şəkildə satılır".

Ekspert sözlərinə davam edərək bildirib ki, istismar müddətini bitirmiş və sökülmə ehtimalı olan üç, dörd və beşmərtəbəli binalarda isə bir və ikiotaqlı mənzillər yatırım məqsədilə alınır: "Çünki həmin binalar söküldükdə o mənzillərin yerinə vətəndaşlara sahəsi daha geniş olan mənzillər verilir. Birotaqlı "xruşovka" layihəli mənzilin ümumi sahəsi 30 kvadrat metrdirsə, yeni tikili binalarda onun əvəzinə daha geniş mənzil verilir ki, mənzil sahibi rahat şəkildə ondan iki otaq düzəldərək istifadə edə bilir".

*Ləman Əlizadə*



# Allergiya:

## qidadan, geyimdən, havadan...

### Mövsümi xəstəlik olan allergik səpmələr ən çox balacaları hədələyir

**Bəzi insanlar zərərli olmayan maddələrə qarşı daha çox həssas olub, həddindən artıq reaksiya göstərir. Allergen deyilən bu maddələr immunitet sistemimizlə təmas edəndə zərərli olmadığı halda bədən ona qarşı böyük miqdarda qoruyucu maddə yaradır. Bu vəziyyətə allergiya deyilir.**

Allergik orqanizmlər qat-qat həssas olur. Bəzi insanlar allergik xəstəlikləri ağır keçirirlər. Uşaqlar bu xəstəliyə daha çox tutulan yaş qisminə aiddir. Allergik xəstələr daha çox anadangəlmə bu cür olsa da onlardan bəzisi gələcəkdə orqanizmini narahat edən maddələrə qarşı immunitet yarada bilir. Amma bir çox insan həyatının sonuna qədər bədənində problem yaradan maddələri ehtiva edən qidalar qəbul edə bilmir. Ətrafımızda anadangəlmə çiyələyə, güllərə, sitrus meyvələrinə, toz dənəciklərinə, yun paltarlara, hətta çörəyə belə allergiyası olan kifayət qədər uşaq var.



Məlumat üçün qeyd edək ki, hazırda insanların ən az 30 faizində allergik xəstəlik var. Allergiya genetik səbəblərə bağlı xəstəlikdir. Lakin tez-tez özünü büruzə verməsində ekoloji faktorların da təsiri çoxdur. Nə qədər çox allergik reaksiyalara məruz qalınsa allergik xəstəliklər də bir o qədər çox peyda olur. Bundan əlavə, mövsümlərin qeyri-normal keçməsi də allergiyanın ortaya çıxmasında əhəmiyyətli rol oynayır. Ekoloji problemlər indi hər mövsümə xarakterik allergik xəstəliklər də yaradıb.

Toz dənəcikləri, gözlə görülməyəcək qədər kiçik böcəklər, plastik tullantılar, kimyəvi təmizləmə vasitələri, ətirlər, ev heyvanların tükləri, günəş, kif göbələkləri, parazitlər, çirkli atmosfer, tullantılardan hazırlanmış ucuz paltarlar allergik xəstəlikləri meydana çıxaran əsas amillərdir. Bunlardan əlavə, bəzi "fast-food"ların tərkibindəkli kimyəvi elementlər, uşaq krakerləri və suxarılarının tərkibinə vurulmuş kimyəvi ədvalar, meyvə şirəsi kimi təqdim edilən rəngli sular, geni dəyişdirilmiş məhsullar, mövsümündən əvvəl yetişdirilən meyvələr də allergik problemlərə səbəb ola bilər.

Allergik xəstəliklər insan həyatını məhdudlaşdırır və həmin şəxsin işdəki, sosial həyatdakı performansına böyük təsir göstərir. Allergiya hətta ani ölümlə nəticələnə bilən təhlükəli bir xəstəlik kimi də xarakterizə edilir. Hər xəstəliyin əlaməti fərqlidir. Eyni allergik xəstəliklərdə rastlanan əlamətlər fərqli ola bilər, bu fərdə görə dəyişə bilir.

Erkən diaqnoz xəstəliyin müalicəsi və irəlilənməsinin qarşısının alınması üçün çox əhəmiyyətlidir. Allergik xəstəliklərin təyini o qədər də çətin deyil. Bəzi zamanlar adi allergiyanı təhlükəli xəstəliyin əlaməti hesab edən həkimlər pasiyentin ağır yoluxucu xəstəlikdən əziyyət çəkdiyi qənaətinə də gəlirlər. Amma allergik səpkilərin səbəbinin dəqiq öyrənilməsi üçün pasiyentin bir neçə yüngül təhlil və test etdirməsi kifayətdir.

Pediatr Elnarə Quliyeva deyir ki, yaz və yay aylarında uşaqlar arasında ən çox rast gəlinən xəstəliklər allergik xəstəliklərdir: "Buna səbəb ağacların yaşıllaşması, dolayısı ilə tozlanma prosesinin başlanmasıdır. Nəticədə uşaqlarda daha çox dərinin və tənəffüs sistemlərinin allergik xəstəliklərinə rast gəlirik. Xəstəliyin qarşısını almaq üçün tədbirlər görürük, lazımlı müalicə təyin edirik. Amma qeyd etmək lazımdır ki, mövsümü xəstəliklərdə boldur və onların da qarşısı müxtəlif yollarla alınır. Ötən qış uşaqlar arasında kəskin respirator virus infeksiyalarının sayı artmışdı. Səbəb qışın qeyri-normal keçməsi və qarın yağmamasıdır. Amma indi ölkəmizdə uşaqlar arasında təhlükəli xəstəlik yoxdur".

Qeyd edək ki, valideynlərin əksəriyyəti övladında məxmərək xəstəliyinin əlamətlərinə bənzər səpkilər aşkarladığını iddia edir. Amma səpkilər olan uşaqlardan analiz götürülərək həm ölkədaxili, həm də ölkədənkənar referens laboratoriyaya göndərib. Müsahibimiz bildirir ki, səpkilərin böyük əksəriyyəti allergiyalardan bağlıdır. Amma səpən uşaqlrаın arasında qızılca olanlara da rast gəlinib.

Allergiyanın qarşısını almaq üçün əvvəlcə allergiyaya səbəb olan faktorları aradan qaldırmaq lazımdır. Bunun üçün uşaqlar üçün yun, heyvan tükü ehtiva edən yastıq və yorğanlar istifadə edilməməlidir. Tüklü oyuncaqlar yığışdırılmalıdır. Ev tozundan, görünməyən mikroblardan xilas olmaq üçün isə uşağın geyimlərinin gündəlik, yataq örtülərinin həftədə bir dəfə ən az 60 dərəcə isidilmiş suda yumaq lazımdır. Əgər allergiyanın səbəbi kifdirsə, otağının nəmi azaldılmalıdır. Poletilen əşyalara allergiyası olanlar isə təbii vasitələrlə təmasda olmalıdır. Quru və küləkli havalar da toza qarşı allergiyası olanlar üçün risk faktorudur. Günəşli havada çölə çıxan uşaqlara eynək və günlüyü olan papaq geydirmək vacibdir.

*Lalə Mehralı*




## Bu döyüşdən 1 milyard dollar qazanc gələcək!

İlon Mask və Mark Zukerberq arasında keçiriləcək döyüş qızğın müzakirələrə yol açıb. Hər kəs bu döyüşdən qazanılacaq gəlir barədə danışır. UFC prezidenti Dana Uayt da bu sıraya qoşulub. O, "TMZ Sports"a müsahibəsində bildirib ki, bu döyüşdən qazanılacaq gəlir 1 milyard dollar həcmində qiymətləndirilir.

Uayt hər iki milyarderlə sosial mediada mübahisə etdikdən sonra danışdığını və qarşıdan gələn döyüşlə bağlı "tamamilə ciddi" olduqlarını söyləyib. O qeyd edib ki, artıq döyüşün keçirilməsi üçün hazırlıqlara başlayıb. İnanır ki, bu, "dünya tarixində ən böyük döyüş, indiyə qədər keçirilən döyüşlərin ən möhtəşəmi" olacaq.




## "Taksilərdə əlavə cihazın quraşdırılmasına ehtiyac görülmür"

Hazırda taksilərdə taksimetr və proqram təminatı var, əlavə cihazın quraşdırılmasına ehtiyac görülmür. Amma lazım olduğu təqdirdə, zəruri cihazların qurulması mümkündür. AZƏRTAC xəbər verir ki, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov parlamentin növbədənkənar sessiyasının iclasında "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişikliklə bağlı qanun layihəsinin müzakirələrində deyib.

Nazir müavini diqqətə çatdırıb ki, reysqabağı tibbi müayinə zamanı sürücünün alkoqoldan istifadə edib-etməməsi yoxlanılır. Onun sözlərinə görə, vətəndaşla məmur arasında təmasın olmaması üçün reysqabağı tibbi müayinəyə şəraiti qarajda sahibkar özü təmin edir.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000